## Kreml təsdiqləyib

Putin və Ərdoğan arasında telefon danışığı olacaq



**Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan Rusiya Prezidenti Vladimir Putinlə dekabrın 3-də telefonla danışacaq.**

Bu barədə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu NATO xarici işlər nazirlərinin Latviyanın Riqa şəhərində keçirilən iclasından sonra açıqlama verib.

Rusiya və Türkiyə prezidentlərinin telefon danışığına hazırlıq gedir. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə isə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. O, Vladimir Putinlə türkiyəli həmkarı Rəcəb Tayyip Ərdoğan arasında telefon danışığının dekabrın 3-də baş tutacağını söyləyib.

## ÜST-ə daxil olan ölkələr koronavirusla bağlı razılaşma imzalayacaq



**Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) üzv ölkələr koronavirusla bağlı yeni qərar verib.**

APA RİA "Novosti"yə istinadən xəbər verir ki, ÜST-ə üzv ölkələr COVID-19 pandemiyasının qarşısının alınması və nəzarətə götürülməsi barədə beynəlxalq razılaşma imzalamaq üçün danışıqlara başlayıb.



## Zəngəzur dəhlizinin tərkib hissəsi olan dəmir yolu xətti yenidən qurulur

Dəmir yolu xətti bütövlükdə dron vasitəsilə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə bir sıra mühüm infrastruktur layihələrinin icrasına başlanıldı. Belə layihələrdən biri Horadiz-Ağbənd dəmir yolu xəttinin yenidən qurulmasıdır.**

Azərtac xəbər verir ki, ölkəmiz üçün həm strateji, həm də iqtisadi əhəmiyyətə malik Horadiz-Ağbənd dəmir yolu xətti Zəngəzur koridorunun tərkib hissəsidir. Layihənin icrası nəticəsində Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birbaşa nəqliyyat əlaqələri yaranacaq, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq.

(səh.4)

№ 220 (5502), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

2 dekabr 2021-ci il (cümə axşamı)



## Bu gün Ceyhun Bayramov Mirzoyanla İsveçdə görüşəcək

**Bu gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan İsveçdə görüşəcək.**

Bunu Avropa İttifaqının xarici siyasət qurumunun nümayəndəsi Lük Pyer Devin deyib.

O bildirib ki, görüşün ATƏT nazirlər konfransı çərçivəsində keçirilməsi nəzərdə tutulur.

## ABŞ dövlət katibi: "Rusiyaya ağır hesab ödətdirməyə hazırıq"



**ABŞ-ın dövlət katibi Entoni Blinken Latviyanın paytaxtı Riqada keçirilən NATO Xarici İşlər Nazirləri Toplantısından sonra mətbuat konfransı keçirib.**

"NATO bizim təhlükəsizliyimiz üçün çox vacibdir. Alyans ortaq dəyərlər üzərində qurulub. O, Avropa və Şimali Amerikada sabitlik üçün güclü qüvvədir", - deyə Blinken bildirib.

Rusiyanın son həftələrdə Ukraynada potensial hərbi əməliyyat planı üçün hazırlıqlarını artırdığını ifadə edən dövlət katibi, "Rusiyanın Ukraynaya qarşı təcavüzkar planlar hazırladığına dair siqnallardan dərin narahatıq. Hazırda biz prezident Putinin təcavüz qərarına gəlib gəlmədiyini bilmirik. Əgər Rusiya Ukraynaya qarşı daha aqressiv hərəkət edərsə, ona ağır hesab ödətdirməyə hazırıq", - deyə bəyan edib.("Anadolu")

O, Rusiyanı hərbi əməliyyat planlarından əl çəkməyə çağırıb.

# 14 şəhid və vida

Hərbçilərimiz İkinci Şəhidlər Xiyabanında torpağa tapşırıldı



(səh.2)



## ABŞ və Britaniya səfirləri Ağdama birgə səfər edib

**ABŞ səfiri Li Litzenberqer və Böyük Britaniya səfiri Ceyms Şarp Ağdama birgə səfər edib.**

Bu barədə Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov "Twitter"də bildirib.

*Qonaqlara dağıdılmış abidələr göstərilib və şəhərin yenidənqurma planı haqqında ətraflı məlumat verilib.*

# Sanksiyalar güclənəcək

Qərb-Rusiya qarşıdurması daha ağır çalar alır

**Kiyev və Qərb ölkələri Rusiyanın Ukrayna sərhədlərində "aqressiv hərəkətləri"nin artdığını iddia edirlər. Moskva isə bəyan edir ki, o, öz ərazisində və öz qaydalarına uyğun hərəkət edir. NATO-nun baş katibi Yens Stoltenberq Almaniyanın "Welt" qəzetinə açıqlamasında bildirib ki, Rusiya ordusunun Ukrayna sərhədinə doğru köçürülməsi "sadəcə blef" kimi qiymətləndirilə bilməz.**

Baş katibin sözlərinə görə, bu il ikinci dəfədir ki, Rusiya minlərlə əsgərini Ukrayna sərhədinə köçürür, təlimlər keçir: "NATO gələcəkdə özünü hücumdan qorumaq üçün Ukraynaya siyasi və praktiki dəstəyi davam etdirəcək. Rusiyanı gərginliyi azaltmağa çağırıram".

(səh.5)




## Oqtay Gülalıyev sağdır, səhhəti yaxşıdır



**"Atam Oqtay Gülalıyev ilə bağlı yazılan xoşagəlməz hadisə yanlışdır. Sağlığı, səhhəti yaxşıdır."**

Bunu hüquq müdafiəçisi Oqtay Gülalıyevin oğlu Təbriz Gülalıyev "Facebook" səhifəsində qeyd edib.

"Diqqət dostlar, atam Oqtay Gülalıyev ilə bağlı yazılan xoşagəlməz hadisə yanlışdır. Sağlığı, səhhəti yaxşıdır. Kimlərin nə niyyətlə yanlış məlumat yayması aydın deyil. Dostlar, xahiş olunur dəqiqləşdirilmədiyi halda yanlış məlumat yaymayasınız", - deyə o bildirib.

*Qeyd edək ki, sosial şəbəkələrdə və bir sıra saytlarda Oqtay Gülalıyevin vəfat eməsi ilə bağlı xəbər yayılmışdı.*

## Daha 1795 nəfər koronavirusa yoluxub

28 nəfər ölüb, 1 967 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 795 yeni yoluxma faktı qeydə alınıb, 1 967 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 28 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 590 113 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 556 716 nəfər müalicə olunaraq sağalıb, 7 884 nəfər vəfat edib, aktiv xəstə sayı 25 513 nəfərdir.

*Ölkədə son sutka ərzində 12 565, hazırkı dövrədək isə 5 551 849 test aparılıb.*



## "Narkomaniya qəsdən yayılır, ölkəmizə ötürülür"

"Mən indiyə kimi məscidlərdə narkomaniya əleyhinə çıxışlar eşitməmişəm"

(səh.5)

## "Brüssel görüşünün də vacib olduğu qənaətindəyəm"



**Toğrul İsmayıl:** "Burada Azərbaycan-Ermənistan rəhbərləri vasitəsiz, birbaşa görüşmək imkanı əldə edəcəklər"

(səh.3)



# 14 şəhid və vida...

## Hərbçilərimiz İkinci Şəhidlər Xiyabanında torpağa tapşırıldı

**Dünən "Sərhədçi" İdman Kompleksində "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirən zaman helikopterin qəzaya uğraması nəticəsində həyatını itirən 14 hərbçimizin vida mərasimi keçirilib.**









Mərasimdə DSX rəisi Elçin Quliyev, hərbi prokuror Xanlar Vəliyev, Bakı şəhərinin meri Eldar Əzizov, digər rəsmi şəxslər, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasim şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb və Dövlət Himnimiz səsləndirilib. Daha sonra general-mayor Ayaz Hüseynov helikopter qəzasında həlak olanların dosyelərini təqdim edib. Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev çox ağır itki ilə üzləşdiklərini deyib: "Silahdaşlarımızı itirdik. Bu itki çox ağırdır. Onların hər biri şəhidlik zirvəsinə ucalaraq ocaqlarının başını uca etdilər. Şəhid olan hərbi qulluqçularımızın ailələrinə başsağlığı verirəm".

DSX-nın rəis müavini, general-leytenat İlham Mehdiyev bildirib ki, şəhidlərimizin əziz xatirəsi onları tanıyanların qəlbindən silinməyəcək. General qeyd edib ki, onlar üzərlərinə düşən işin öhdəsindən layiqincə gəliblər: "Şəhidlər ölmür sözü əbəs deyilmir. Şəhidlərin xatirəsi daim qəlbimizdə yaşayacaq. Bu gün biz silahdaşlarımızı son mənzilə yola salırıq. Kədərimiz sonsuzdur. Əlbəttə, valideynlərin də kədərini başa düşürük. Yeganə təsellimiz odur ki, silahdaşlarımız şəhidlik zirvəsinə yüksəlməklə bütün Azərbaycan xalqının övladına çevrilib. Bu gün dəfn mərasimini keçirdiyimiz şəhidlərimiz Vətən müharbəsində də öz vəzifələrinin öhdəsindən gələrək torpaqlarımızın işğaldan azad olunmasına öz töhfələrini veriblər. Onların şərəfli xidmət yolu hər bir sərhədçi üçün örnək olacaq. Əziz valideynlər, siz hər bir sərhədçinin timsalında minlərlə oğul, qardaş qazanmısız".

Mərasimdə şəhid hərbçilərin yaxınları da çıxış ediblər. Mərhum kapitan Xəyyam Əliyevin atası Əlixan Əliyev övladı ilə fəxr etdiyini deyib: "Ana-bacılarımdan xahiş edirəm ki, onlar üçün ağlamasınlar. Sağ olsun millətimiz, torpağımız. Dünyanın yarısını gəzmişəm. Hara gedirdim, başımı aşağı salırdım. İndi fəxrlə gəzirəm. Torpaqlarımız azad olunub. Mənim balam şəhid olub. Düzdür, ömür boyu əzab-əziyyət çəkəcəm. Amma mənə dözüm verən onun şəhidliyidir".

Mərasimdən sonra hərbçilərin cənazələri dəfn olunmaq üçün İkinci Şəhidlər Xiyabanına yola salınıb və ailələrinin, yaxınlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə nəşlər torpağa tapşırılıb.

## Baş prokuror söz verdi ki, baş vermiş hadisənin səbəb və şəraiti istintaq zamanı öyrəniləcək

Xızıda baş vermiş hadisə ilə bağlı sosial şəbəkədə müxtəlif versiyalar səslənməkdə, təxribat iddiaları ortaya atılmaqdadır. Baş prokuror Kamran Əliyev hadisənin bütün səbəb və şəraitinin istintaq zamanı öyrəniləcəyini və istintaqın gedişi barədə Azərbaycan ictimaiyyətinin ətraflı və mütəmadi məlumatlandırılacağını bildirib. Baş prokuror təəssüf hissi ilə qeyd edib ki, bəzi şəxslər tərəfindən bu hadisədən siyasi məqsədlər üçün sui-istifadə hallarına cəhdlər göstərilir, heç bir fakta söykənməyən əsassız şayiələr yayılır: "Bununla bağlı bildirirəm ki, bu kimi şəxslər barədə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ən sərt tədbirlərin görülməsi təmin ediləcək. Bu faciədən siyasi məqsədlər üçün istifadə edilməsi yolverilməzdir". Baş prokurorun birinci müavini Elçin Məmmədov helikopterin hər hansı kənar müdaxilə nəticəsində qəzaya uğraması barədə ehtimalları istisna edib. Digər ehtimallar üzərində isə işin getdiyini bildirib. O, işin istintaqına ölkənin ən yaxşı müstəntiqlərinin cəlb edildiyini söyləyib. Vurğulanıb ki, hadisənin pilotun ehtiyatsızlığı, helikopterdə baş vermiş hər hansı texniki nasazlıq, hava şəraiti, o cümlədən hər hansı digər səbəbdən baş verməsi ilə bağlı bütün ehtimallar ətraflı yoxlanılır. Müdafiə Nazirliyindən cəlb olunmuş mütəxəssis tərəfindən qara qutunun götürülməsi təmin edilməklə hazırda onun tədqiqi aparılır.

**Hadisənin təfərrüatı haqqında qəzada yaralanmış hərbçilər də danışıblar. Polkovnik-leytenant Emil Cəfərov deyib ki, helikopterdə heç bir nasazlıq, şübhəli məqam yox idi. O qeyd edib ki, 30 noyabr 2021-ci ildə praktiki atışlı təlim uçuşları olmalı idi:** "Səngəçal aerodromundan qalxıb Qaraheybət istiqamətinə getməli idik. İstiqamət üzrə getdik, meydançaya eniş manevri etdikdən sonra qəza baş verdi. Sərnişin kabinəsində olduğum üçün tam təfərrüatları ilə xatırlamıram. Heç bir nasazlıq, şübhəli məqam yox idi. Helikopterdə desant daşıma sayı 24 nəfərdir, bu baxımdan heç bir məhdudiyyət aşılmamışdı". Səhhəti ilə bağlı danışan polkovnik-leytenant ayağında əzilmə, sol qolunun yuxarı hissəsində isə sınıq olduğunu deyib. Kapitan Ramin Ədilov da helikopterdə eniş zamanı idarəetmənin itirildiyini və bir anda qəzanın baş verdiyini bildirib.

**Millət vəkili Hikmət Babaoğlu deyib ki, bilərəkdən və ya bilməyərəkdən Milli Ordumuzun imicinə, şəxsi heyətin peşəkarlığına xələl gətirən hallara yol verilir. Deputat bildirib ki, bu hal informasiya təhlükəsizliyimiz baxımından milli maraqlarımıza uyğun deyil:** "Qəzanın nədən baş verdiyi hamımız üçün bir sualdır. Ancaq hər birimizə bu sualın doğru cavabı lazımdır. Ona görə də hər şeydən öncə media bu suala düzgün cavab verə biləcək peşəkarlara və rəsmi qurumlara üz tutmalıdır. Bəzən cəmiyyətin təcili informasiya tələbatını görən kimi onu qarşılamaq üçün hər hansı mənbəyə üz tutur, həmin mənbədən əldə etdiyimiz məlumatları cəmiyyətə təqdim edirik. Bu, doğru, media adına peşəkar yanaşma deyil. İnformasiya cəmiyyətində hər şeydən öncə məsuliyyət, dəqiqlik, bundan sonra operativlik öndə olmalıdır. Milli maraqlarımızın, ordumuzun, onun şanlı mənsublarının əleyhinə operativlik heç kəsə lazım deyil. Hamı bilir ki, belə qəzalar dünyanın hər yerində olur. Statistikaya nəzər salsaq, görərik ki, Azərbaycan bu tipli qəzalara görə ən son yerlərdən birini tutur. Bu da ordumuzun texniki təchizatının yeni və keyfiyyətli, hərbçi kadrlarımızın isə hazırlığının yüksək səviyyədə olması ilə əlaqədardır. Mediamız mühüm nüanslara daima diqqət yetirməli və daha məsuliyyətli davranmağı bacarmalıdır".

*Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli də bəyan edib ki, helikopter qəzaları intensiv şəkildə təsadüf olunan hallardandır. Onun sözlərinə görə, belə olaylar ABŞ-da, Fransada, Türkiyədə, inkişaf etmiş digər dövlətlərdə də yaşanır:* "Azərbaycan Silahlı Qüvvələri ən müasir silah arsenalına malikdir, peşəkardır. 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz bunu bir daha təsdiqlədi. Qəza baş veribsə, səbəbləri araşdırılacaq, müvafiq ölçü götürüləcək. Dövlət qurumları zatən tədqiqata başlayıblar. Araşdırma aparılacaq, nəticələr bilinəcək. "Qara qutu" əldədir, üstəlik, helikopterdə olan və sağ qalan iki nəfər canlı şahid də var. Bu qədər faktın içində qəzanı təxribat kimi şərh edənlər ortaya çıxırsa, deməli, faciə üzərindən təxribat törətmək istəyənlər var. Allah Şəhidlərimizə rəhmət eləsin!".

**İsmayıl Qocayev**



# Avropa İttifaqı-Azərbaycan əlaqələri müzakirə olundu

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

Toivo Klaar Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Şarl Mişelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa İttifaqı Şurasının Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri, Cənubi Qafqazda əməkdaşlıq perspektivləri, postmünaqişə vəziyyəti və Ermənistan-Azərbaycan sərhədində noyabr ayında baş vermiş gərginliklə bağlı məsələlər müzakirə edildi.

Söhbət zamanı, həmçinin bu ay Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinin gündəliyinə dair fikir mübadiləsi aparıldı.

Toivo Klaar helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verdi. Prezident İlham Əliyev başsağlığına görə təşəkkür etdi.

# Emin Hüseynovla bağlı sərəncam imzalanıb

## O, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi təyin edilib



**Prezident İlham Əliyev Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Emin Zamin oğlu Hüseynov "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

Prezident İlham Əliyevin imzaladığı digər sərəncamla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 24 may tarixli 2656 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 493) ləğv edilib.

# Zəngəzur dəhlizinin yaradılması Avropa ilə əlaqələri gücləndirəcək

## Səfir: "Regionda yaranmış yeni geosiyasi vəziyyət Azərbaycanın gələcək inkişafı üçün yol açır"



**Yeni geosiyasi reallıq, Qarabağın dinamik dirçəlişi, nəqliyyat kommunikasiyalarının açılması və yeni iqtisadi imkanlar Azərbaycanın tanınmış regional lider kimi daha da çiçəklənməsinə və güclənməsinə yol açır.**

Trend-in məlumatına görə, bunu Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov Qazaxıstan Respublikasının Birinci Prezidenti Gününün qeyd edilməsi ilə bağlı keçirilən tədbirdə deyib.

"Qarabağda vəziyyətin sabitləşməsi Cənubi Qafqazda sabitliyə şərait yaradır, Zəngəzur dəhlizinin yaradılması Naxçıvan vasitəsilə Azərbaycanla Türkiyə, daha sonra isə Avropa ilə əlaqələri gücləndirəcək. Bu, həm də ölkəmizin Xəzər limanı infrastrukturunun artan potensialı üçün yeni imkanlar açır", - səfir bildirib.

# ABŞ Dövlət katibi və Çavuşoğlu Qafqazdakı son vəziyyəti müzakirə edib



**ABŞ Dövlət katibi Entoni Blinken və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Riqada görüşüb.**

Bu barədə Türkiyə XİN rəhbəri "Twitter"də bildirib.

Görüş NATO ölkələri XİN başçılarının sammiti çərçivəsində baş tutub. Mövlud Çavuşoğlunun sözlərinə görə, görüşdə ABŞ-Türkiyə münasibətləri, eyni zamanda Efiopiya, Ukrayna, Suriya və Qafqazdakı son vəziyyət müzakirə olunub.

# Azərbaycanda daha bir soyuducu istehsalı zavodu tikilə bilər

**Azərbaycanda daha bir soyuducu istehsalı zavodunun qurulması planlaşdırılır.**

Bunu "APA-Economics"ə Gəncə İş Adamları İctimai Birliyinin sədri Zəfər Məmmədov deyib. Onun sözlərinə görə, istehsal müəssisəsinin Gəncədə yaradılması nəzərdə tutulur.

"Bu layihənin icrası ilə bağlı Türkiyə ilə əməkdaşlıq etmək istəyirik və hazırda bu istiqamətdə danışıqlar aparılır", - deyə Z. Məmmədov qeyd edib.

*Xatırladaq ki, bu ilin yanvar-oktyabr aylarında Azərbaycan 483 ədəd məişət soyuducusu istehsal olunub. İllik ifadədə istehsal 21,5% azalıb. Noyabrın 1-nə hazır məhsul istehsalı 172 ədəd təşkil edib.*

# "Rusiyanın istənilən aqressiv hücumu ona baha başa gələcək"

## NATO baş katibi: "Bu, suveren Ukrayna xalqının seçimidir və ona hörmət olunmalıdır"

**"Ukrayna beynəlxalq səviyyədə sərhədləri tanınan müstəqil suveren bir ölkədir. Bu ölkənin sərhədlərinə hörmət olunmalıdır. Bu o deməkdir ki, Krım və Donbas da Ukraynanın tərkib hissələridir. Yəni, "NATO-nun suveren ölkəni dəstəkləməsi provakasiyadır" anlayışı tamamilə yanlışdır. Bu, suveren Ukrayna xalqının seçimidir və ona hörmət olunmalıdır".**

APA-nın xəbərinə görə, bunu NATO-nun Baş katibi Yens Stoltenberq Riqada keçirilən NATO ölkələri XİN başçılarının sammitinin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.

O bildirib ki, Rusiyanın təsir sahəsi anlayışı, öz qonşularına nə etmək və etməməklə bağlı qərar vermə hüququ qəbuledilməzdir: "NATO müdafiə xarakterlidir, heç kimə hücum etmir və xalqların seçiminə hörmət edir. Ukraynanın nə zaman NATO-ya üzv olacağı bizə - NATO-nun 30 üzvünə aid olan məsələdir. Yalnız Ukrayna və 30 NATO üzvü Ukraynanın hərbi bloka nə zaman üzv olmağa hazır olduğuna qərar verəcək. Rusiyanın bu məsələdə deyəcəyi söz və ya veto hüququ yoxdur. Və ən əsası Rusiyanın öz qonşularına limit qoymaq üçün təsir sferası yaratmaq hüquq yoxdur".




NATO Baş katibi deyib ki, sammitdə Rusiyanın öz qonşularına qarşı davam edən aqressiyası və qeyr-stabillik yaradan hərəkətləri, Ukrayna və onun ətrafında hərbi kontingentini gücləndirməsi müzakirə edilib: "Biz ayıq-sayıq olmalı və eskalasiyadan çəkinməliyik. Nazirlər səviyyəsində bu, bir daha təsdiqləndi. Rusiyanın istənilən aqressiv hücumu ona baha başa gələcək. Bunun Rusiya üçün çox ciddi siyasi və iqtisadi nəticələri olacaq. Gürcüstan və Ukrayna NATO-nun uzunmüddətli və yaxın tərəfdaşlarıdır. Bu ölkələr bizim missiyalarımıza və əməliyyatlarımıza töhfə veriblər və üzvlük üçün çox həvəslidirlər. Nazirlər bir daha vurğuladılar ki, biz öz qərarımızda qalırıq. Bizim Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə olan dəstəyimiz sarsılmazdır. Biz Gürcüstana və Ukraynaya dəstəyimizdə sadiqik. Biz bu ölkələrin özlərini qorumaq üçün imkanlarını daha da gücləndirməsinə kömək edirik".




# “Brüssel görüşünün də vacib olduğu qənaətindəyəm”

## Toğrul İsmayıl: “Burada Azərbaycan-Ermənistan rəhbərləri vasitəsiz, birbaşa görüşmək imkanı əldə edəcəklər”

**Yerli və xarici təhlilçilər 26 noyabrda Soçidə baş tutan üçtərəfli görüşün nəticələrini təhlil edirlər. Rusiya Dövlət Dumasının Beynəlxalq Məsələlər üzrə Komitəsinin sədri Leonid Slutski deyib Soçidə mühüm addım atıldı və bu, Qarabağ münaqişəsinin yekun həllini yaxınlaşdıracaq.**

Məlum olduğu kimi Soçi görüşündə Rusiya Prezidenti Vladimir Putin ilin sonuna qədər iki dövlət arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərini yaratmaq barədə razılığa gəlməyin önəmini vurğuladı. Faktiki olaraq, Paşinyana “vaxt gözləmir”, “zaman Ermənistanın zərərinə işləyir” mesajını verdi. Qeyd olundu ki, baş nazir müavinləri gələn həftə Moskvada görüşəcək, detalları müzakirə edəcəklər. Xatırladaq ki, 15 dekabrda Brüsseldə Prezident İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş keçirilməsi planlaşdırılıb. Görüş Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək. Bir sıra siyasi analitiklər hesab edirlər ki, Brüssel görüşünü yeni mərhələnin başlanğıcı kimi qeyd etmək olardı. Amma 26 noyabrda Soçidə keçirilən görüş Brüssel görüşünü kölgədə qoydu. Yəni Soçi görüşündən sonrakı Brüssel görüşünün ciddi əhəmiyyəti qalmayıb.

***Azərbaycan-Ermənistan rəhbərliyi arasında baş tutan təmaslarla bağlı “Şərq”in müsahibi Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Kahraman Maraşdakı “Sütçü İman” Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıldır. Professor son günlər baş verən hadisələrlə bağlı suallarımızı cavablandırıb...***

**- Toğrul müəllim, Soçi görüşünün nəticələrini, xüsusən Rusiya prezidentinin sərgilədiyi mövqeyi necə dəyərləndirirsiniz?**

- 10 noyabrda imzalanmış 11 maddəlik bəyannamənin bütün qərarları qeyd-şərtsiz icra olunmalıdır. Üçtərəfli sazişə imza atan tərəflər sadəcə Azərbaycan və Ermənistan deyil. İrəvanla yanaşı, vasitəçi Rusiya da üzərinə öhdəlik götürüb. Əgər 11 maddəlik sazişdə hansısa bənd icra olunmursa, ümumən bəyannamə işə yaramır və proseslər əvvələ qayıdır. Xatırlayırsızsa, üçtərəfli görüşün 9 noyabrda olacağı ilə bağlı rəsmi xəbərlər yayılmışdı. Amma daha sonra İrəvanın bundan imtina etdiyi məlum oldu. Baş nazir Nikol Paşinyan müxtəlif bəhanələr irəli sürərək həmin tarixdə görüşdən boyun qaçırdı. Maraqlısı odur ki, Moskvanın həmin müddətdə səsi çıxmadı. Sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin görüş təklifi gündəmə gətirildi. Ermənistan dərhal Aİ-nin görüş təklifinə “hə” cavabı verdi. Kremlin buna səssiz qalmayacağı bəlli idi və gözlənilən oldu. Bir neçə gün sonra Moskva Azərbaycan və Ermənistan rəhbərliyi ilə Soçidə görüş keçiriləcəyini bəyan etdi. Əgər görüş olmasaydı, Rusiyanın vasitəçilik missiyasına kölkə düşəcəkdi. Əslində Soçidə yeni nəsə olmadı, əlavə razılaşma imzalanmadı. Sadəcə, üçtərəfli bəyanatların icrasına dair sənəd qəbul olundu. Amma Moskva istəyinə nail oldu və bir daha göstərdi ki, Cənubi Qafqazda proseslərə özü nəzarət edir. Görüşün formatı, liderlərlə ünsiyyət və s. birbaşa buna hesablanmışdı.

> “Zəngəzur dəhlizi, sadəcə, Azərbaycan və Türkiyə üçün deyil, eyni zamanda Rusiya və İran üçün də olduqca əhəmiyyətlidir. Məhz ona görə açılması qaçılmazdır”

**- “Soçidən sonra Brüssel görüşünə ehtiyac yoxdur” fikirlərinə münasibətiniz necədir?**

- Görüşlərin ümumən vacib olduğu qənaətindəyəm. Soçi görüşündə məqsəd bəlli idi. Bir növ ümumi xarakter daşıyırdı və üç ölkə təmsilçilərinin yer aldığı komissiyanın fəaliyyət istiqamətlərini özündə əks etdirirdi. Brüssel görüşündə də Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı müəyyən məsələlər müzakirə mövzusu ola bilər. Xüsusən, görüş təşəbbüsünün nüfuzlu bir qurumdan - Avropa İttifaqından gəlməsi də mühümdür. Həm də nəzərə alaq ki, Brüsseldə Azərbaycan-Ermənistan rəhbərləri vasitəçisiz, birbaşa görüşmək imkanı əldə edəcəklər. Azərbaycan Avropa İttifaqı Şurası ilə yaxından əməkdaşlıq edən bir ölkə kimi təşkilatdan gələn təklifləri müsbət qarşılayır. Rəsmi Bakı göstərir ki, heç bir sülh və əməkdaşlıq təşəbbüsünü geri çevirmir. Brüsseldəki təmaslar hansısa problemin həlli üçün irəli doğru addım ola bilər. “Soçidən sonra Brüssel görüşünə ehtiyac varmı” söhbəti isə başqa məsələdir. Ona qalsa, 44 günlük müharibədən sonra ümumiyyətlə heç bir görüşə ehtiyac olmamalıydı. Çünki Azərbaycan müharibədə qalib olub və Ermənistan təslimçi sülhə imza atıb. Yəni ortada 10 noyabr və 11 yanvar tarixlərində imzalanmış üçtərəfli bəyanatlar var. Bu bəyanatların şərtləri Ermənistan tərəfindən yerinə yetirilməlidir. İrəvan bundan boyun qaçırdığı üçün əlavə görüşlərə ehtiyac yaranır. Çünki belə görüşlərlə Ermənistanın bütün bəhanələrini əlindən almaq lazımdır.

**- Avropa İttifaqının Brüssel təşəbbüsü haradan qaynaqlandı, məqsəd nədir?**

- Qərb ölkələri, daha doğrusu, Avropanın nüfuzlu strukturları Cənubi Qafqazdakı önəmli proseslərdən tamamilə kənarda qalmaq istəmir. Avropa İttifaqının missiyalarından biri bölgələrdə sülhün, sabitliyin təmin edilməsi, münaqişə ocaqlarının aradan qaldırılmasıdır. Görünür, bölgədə qeyri-müəyyənliyin qalması, arzuolunmaz proseslərin davam etməsi Avropanın da işinə yaramır. Təbii ki, Qərb də çalışır ki, önəmli regionları Rusiyanın təsir dairəsindən uzaqlaşdırsın.

**- İƏT-in Aşqabadda keçirilən XV Zirvə toplantısı mühüm ikitərəfli görüşlərlə yadda qaldı, müəyyən razılaşmalar əldə olundu. Sammitin önəmini necə qiymətləndirirsiniz?**

- İslam Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən Zirvə toplantısı kifayət qədər önəmliydi. Ən mühüm məqamlardan biri isə şübhəsiz ki, Azərbaycan, İran və Türkmənistan arasında imzalanmış anlaşma və ikitərəfli görüşlər idi. Zirvə sammitinin nəticələrini Qarabağ zəfərindən sonra Azərbaycanın əhəmiyyətli beynəlxalq nailiyyətlərindən saymaq olar. Azərbaycan daha da güclənməkdə və yeni beynəlxalq reallığın ortaya çıxdığını ortaya qoymaqdadır. Dünya ölkələri Azərbaycanın Cənubi Qafqazdakı önəmli mövqeyini, gücünü və qətiyyətini birmənalı qəbul edirlər.

**- Zəngəzur dəhlizinin reallaşması yönündə ciddi addımlar atılmaqdadır. Dəhlizin fəaliyyətinin önündə heç bir əngəl qalmadığı deyilir. Sizcə, yaxın dönəmdə bu önəmli nəqliyyat koridorunun işə başlaması mümkün olacaqmı?**

- Ermənistan uzun illər dünyaya bəyan edirdi ki, Azərbaycan və Türkiyə İrəvanı iqtisadi blokadada saxlayır, regional əməkdaşlığına imkan vermir s. Amma indi rəsmi Bakı və Ankara davamlı şəkildə Ermənistana əməkdaşlıq təklif edir. Kommunikasiyaların qurulması, yolların açılması ilə bağlı demək olar ki, hər gün Paşinyan hökumətinə çağırışlar edilir. İrəvan isə çağırışları qulaqardına vurur. Şəxsən mən Zəngəzur dəhlizinin yaxın dönəmdə açılacağına inanıram. Çünki bu məsələ Ermənistanın etirazından və təkzibindən asılı olmayaraq, üçtərəfli bəyanatlarda öz əksini tapıb. Digər yandan Zəngəzur dəhlizi, sadəcə, Azərbaycan və Türkiyə üçün deyil, eyni zamanda Rusiya və İran üçün də olduqca əhəmiyyətlidir. Məhz ona görə açılması qaçılmazdır.

**İsmayıl Qocayev**

# ABŞ səfiri Tərtərə səfər edib



**ABŞ səfiri Litzenberger Tərtər rayonunun Şəhlabad və Əskipara kəndlərinə səfər edib.**

O, Əhali, Qaçqınlar və Miqrasiya Bürosu proqramı çərçivəsində kəndlərdə Birləşmiş Ştatlar tərəfindən maliyyələşdirilən BMT QAK proqramları ilə tanış olmaq üçün BMT QAK-in Azərbaycandakı nümayəndəsi Quido Ambroso ilə görüşüb.

Səfir Litzenberger, həmçinin kəndlərin münaqişədən zərər çəkmiş sakinləri ilə görüşüb, onların həyatı və keçmiş təmas xəttinə yaxın ərazidə yaşadıqları çətinliklərlə tanış olub.

*Qeyd edilib ki, Birləşmiş Ştatlar 3,9 milyon dollardan çox maliyyə vəsaiti ilə BMT QAK-in Azərbaycandakı proqramlarının ən böyük maliyyə dəstəkçisidir.*

# Benzinin qiyməti ucuzlaşdı



**Türkiyə Enerji Neft-Qaz Təchizatı Stansiyaları Birliyi benzinin satış qiymətinin də ucuzlaşdığını açıqlayıb. Birliyin məlumatına görə, dekabrın 1-dən etibarən benzinin satış qiyməti 58 kuruş (Türkiyə qəpiyi) ucuzlaşır.**

Qiymət endirimi nəticəsində böyük şəhərlərdə - İstanbulda benzinin litri təqribən 9,67 türk lirəsindən 9,09 lirəyə, Ankarada 9,74-dən 9,16-ya, İzmirdə isə 9,76-dan 9,18 lirəyədək ucuzlaşır. Paylayıcı firmalarının təyin etdiyi qiymətlərdəki cüzi fərqlilik rəqabət və sərbəstliyə, həmçinin, şirkətlər və şəhərlər arasında dəyişə bilir.

**Məlahət**

# İrəvanın iddiaları əhəmiyyətsiz və mənasızdır

## Mərkəz rolunu bundan sonra Azərbaycan oynayacaq



Bunu Türkmənistan, Azərbaycan və İran arasında imzalanan sənəd bir daha göstərdi

**”Regional və beynəlxalq təşkilatlarla iş rəsmi Bakı üçün əsas prioritetlərdən biridir. Bu istiqamətdə İqtisadi Əməkdaşlıq Təşkilatı ilə birgə əməkdaşlıq da müvafiq komponentlərdən idi”.**

Bu barədə Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib. Politoloq bildirib ki, Azərbaycan İqtisadi Əməkdaşlıq platformasına töhfə verəcək bir sıra təkliflərlə çıxış edib: ”Təşkilatın ötən gün Aşqabadda baş tutan və 10 dövlətin iştirakı ilə keçirilən iclası mühüm əhəmiyyət kəsb edirdi. Görüş çərçivəsində Azərbaycan Prezidenti Pakistan, Türkmənistan, İran və Türkiyə liderləri ilə görüşlər keçirib və bu görüşlərdə ikitərəfli münasibətlərin daha da inkişaf etməsi həmin ölkələr ilə müzakirə predmeti olub”. Poltiloq qeyd edib ki, keçirilən vacib görüşlərdən biri İran İslam Respublikası və Azərbaycan Respulikası Prezidenti arasında olan görüş idi: ”Son zamanlar iki tərəf arasında müəyyən çağırışlar və sual doğuran məsələlər var idi. Prezidentlərin görüşündə İranla Azərbaycan arasında münasibətlərin iki qardaş dost xalq arasında olan münasibətlərin ruhunda davam edərək bundan sonra da inkişaf edəcəyi barəsində çıxış etdilər. Bundan sonra da müxtəlif sahələrdə birgə əməkdaşlığın daha da genişlənməsi siqnalını verdilər. Artıq bunun ilkin görüntüləri var idi. Bu, Aşqabadda Türkmənistan, Azərbaycan və İran arasında türkmən təbii qazının İran vasitəsilə Azərbaycana nəqlini nəzərdə tutan əhəmiyyətli bir sənəd idi ki, Prezident İlham Əliyev həmin sənədi tarixi sənəd adlandırır. Bu sənədlə biz Cənub-Şimal və Cənub-Qərb nəqliyyat dəhlizində vacib mərkəz rolu oynadığımızı bir daha sübut etmiş olduq”. Z.Məmmədov qeyd edib ki, son zamanlar Ermənistanda iddia edirdirlər ki, guya, İrəvan Cənub-Şimal və Cənub-Qərb nəqliyyat dəhlizində mərkəz rol oynayacaq: ”Lakin Türkmənistan, Azərbaycan və İran arasında imzalanan sənəd bir daha göstərdi ki, istər neft-qaz, istərsə də qeyri-enerji mallarının Qərbə və Şimala çatmasında mərkəz rolunu bundan sonra da Azərbaycan oynayacaq. Türkmən qazının İrana və Azərbaycana gəlməsi həm də İran və Azərbaycan arasında iqtisadi-siyasi məsələlərin həllini tapmasında mühüm rol oynayacaq və gələcəkdə Tehranla Bakı arasında Cənub-Şimal nəqliyyat dəhlizinin şaxələndirilməsinə, eyni zamanda güclənməsinə səbəb olacaq”. Politoloq, həmçinin bildirib ki, Zəngəzur dəhlizindən birgə istifadəyə dair İqitsadi Əməkdaşlıq Təşkilatının üzvləri arasında olan fikirlər də çox vacibdir: ”Türkiyə lideri cənab Ərdoğan öz çıxışında dəhlizin önəmindən danışdı. Birgə memoranduma nəzər salsaq, görərik ki, yekun bəyanatda ümumiyyətlə üzv dövlətlər Azərbaycanın işğaldan azad edilən rayonlarına investisiya qoyuluşuna çağrılır. Eyni zamanda, Zəngəzur dəhlizi ifadəsindən istifadə edilir ki, bu da bu yolun doğrudan da dəhliz olacağının bir daha əyani sübutudur”.

**İsmayıl Qocayev**



# ÜST xəbərdarlıq etdi

## 23 ölkədə koronavirusun ”omikron” ştammına yoluxma halları qeydə alınıb

**Dünyanın azı 23 ölkəsində koronavirusun yeni ”omikron” ştammına yoluxma halları qeydə alınıb. Trend-in məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus deyib.**

Onun sözlərinə görə, ”omikron” ştammının aşkarlandığı ölkələrin sayının artması gözlənilir və ÜST bu artımı ”son dərəcə ekstremal” kimi qəbul edir.

Qeyd edək ki, koronavirusun ilk dəfə Afrikanın cənubunda aşkarlanan B.1.1.529 ştammına ”omikron” adı verilib. Bildirilib ki, sözügedən ştammda çox sayda mutasiyalar mövcuddur və digər ştammlardan daha yoluxucu olması ilə bağlı şübhələr var.

Ehtiyat tədbiri olaraq, bir sıra ölkələr Cənubi Afrika Respublikası və Afrikanın cənubundakı digər dövlətlər üçün sərhədlərini bağlayıblar.

# İki nəfər Vətən müharibəsi iştirakçısı Amnistiya aktı ilə cəzadan azad edildi

**Zəfər günü ilə bağlı qəbul edilən Amnistiya aktının tətbiqi ilə 2 nəfər Vətən müharibəsi iştirakçısı cəzadan azad edilib.**

Trend-in məlumatına görə, bunu Ədliyyə Nazirliyinin Bakı şəhər Probasiya İdarəsinin rəisi Namiq İsmayılov deyib.

O bildirib ki, bununla yanaşı cəzadan azad edilənlərdən 92-i qadın, 566-sı kişi, 47-i 60 yaşdan yuxarı məhkumlardır.

*Qeyd edək ki, noyabrın 5-də Milli Məclis Zəfər Günü ilə bağlı amnistiya elan edilməsi haqqında qanun layihəsini təsdiqləyib. Qərar qəbul edilən gündən qüvvəyə minib.*

*İndiyə qədər akt 1500-dən çox şəxsə şamil edilib. Amnistiya aktının ümumilikdə 17 min nəfərə şamil olunması gözlənilir.*

# Kremlin mövqeyi getdikcə zəifləyir

## Rusiya indi də Xəzər Şurasının yaradılmasını təklif etməklə təsir imkanlarını qorumağa çalışır




**Moskva Xəzər Şurasının yaradılmasını təklif edib. Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Xəzəryanı ölkə başçılarının Aşqabadda keçiriləcək növbəti sammitində Xəzər Şurasının yaradılması təşəbbüsü irəli sürüləcək:**

“Biz Xəzər Şurasının Həştərxanda yerləşməsini təklif edirik. Hazırda detallar razılaşdırılır. Hələlik heç kəs bu təşəbbüsə etiraz etmir. Bir sıra həmkarlarımız tərəfindən bunun növbəti bürokratik struktur olacağı ilə bağlı qorxuları var. Burada yəqin ki, məsələ bunu necə təşkil etməkdir. Bunu hansısa böyük katiblik maşını kimi deyil, Xəzər əməkdaşlığının müxtəlif aspektləri ilə bağlı sadəcə müntəzəm qurum kimi təşkil etmək olar. Bu təkcə Xəzəryanı ölkə başçılarının sammitinə hazırlıq kontekstində deyil, daimi əsasda olmalıdır”. Adətən Moskvanın təşəbbüslərinə baxış birmənalı olmur və bunun da bəlli səbəbləri var. Elə Sergey Lavrov özü də əvvəlcədən təşəbbüsə fərqli reaksiyalar olacağını istisna etməyib və Xəzər Şurası ilə bağlı təklifdə əsas məqsədin nə olduğunu izah etməyə çalışıb.

**Rusiyanın təklifini “Şərq”ə dəyərləndirən siyasi şərhçi Azər Həsrət bildirib ki, Moskvadan gələn istənilən təşəbbüs şübhəlidir. Ekspertin sözlərinə görə, xüsusən Xəzəryanı ölkələr – Azərbaycan, Türkmənistan və Qazaxıstan Rusiyadan gələn təkliflərə bir qədər ehtiyatlı yanaşmalıdır:** “Rusiya güvəniləcək, etibar ediləcək dövlət sayılmır. Tarixin bütün mərhələlərində Rusiyaya güvənənlər bu və ya digər şəkildə yanıldıqlarını görüblər. Bu baxımdan Xəzəryanı ölkələrin ayrıca Şurasının yaradılması və baş qərargahın Həştərxanda yerləşdirilməsi faktiki olaraq Moskvanın Xəzərlə bağlı bütün prosesləri öz əlində cəmləmək, özünün nəzarətində olan bir katiblik vasitəsi ilə idarə etmək cəhdidir. Ona görə də rəsmi Bakı bu məsələdə ehtiyatı əldən verməməlidir. Əgər belə bir təşəbbüs irəli sürüləcəksə, Azərbaycan Türkmənistan və Qazaxıstanla öz addımlarını koordinasiya etməlidir. Rusiyanın ənənəvi təcavüzkar ritorikasının qarşısı alınmalıdır. Təbii ki, Rusiyanın təşəbbüsü birmənalı rədd edilməyə bilər. Moskvanın yeni strukturda daha çox söz sahibi olmasını əngəlləmək mümkün olarsa, qorxulu məsələ olmaz. Xəzər dənizi qapalı göldür və 5 dövlət bu və ya digər şəkildə bu nəhəng göldə sahiblik haqqına malikdir. Heç bir ölkəni buradan sıxışdırıb çıxartmaq olmaz. Bütün Xəzəryanı ölkələr öz fəaliyyətlərini koordinə etmək məcburiyyətindədir. O baxımdan belə bir Şuranın qurulması məntiqli görünə bilər. Lakin yenə qeyd edirəm, Rusiyanın məqsədi bölgədə kimin ağa olduğunu göstərməkdir”.

**A.Həsrətin qənaətincə, Türk Dövlətləri Təşkilatının qurulması və ötən gün Aşqabadda İƏT-in XV Zirvə görüşünün keçirilməsi Rusiyanı bölgədə daha fəal hərəkət etməyə sövq edir:** “Rusiya görür ki, getdikcə mövqeləri zəifləyir. Ona görə də yeni yollar ixtira etməyə çalışır ki, regionda nüfuzunu, təsir imkanlarını qoruyub saxlaya bilsin. Xəzər Şurası da bu ixtiralardan biridir. Amma Moskva nəzərə almalıdır ki, Xəzəryanı ölkələr əvvəlki dönəmlərdə olduğu kimi zəif, qapazaltı ölkələr deyil. Bu ölkələr artıq Türk Dövlətləri Təşkilatının üzvüdür”.

**İsmayıl Qocayev**

# Təəssüf doğurur...

## Matəm günü ilə bağlı bəzi TV və radiolar efir cədvəlində dəyişikliklər etmədi



**”14 igidimizin şəhid olması fonunda bəzi TV və radioların efir cədvəlində, ələlxüsus əyləncəli və yumoristik verilişlərin yayımında heç bir dəyişiklik etməməsi həqiqətən acı təəssüf doğurur”.**

Bu barədə Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş, mediaya dəstək layihələri departamentinin direktoru Rüstəm Əbülfətoğlu deyib. Qurum təmsilçisi feysbuk profilində yazıb ki, bu yanaşma ilk növbədə milli kimlik, milli düşüncə və milli mənəviyyat məsələsidir: ”Yeri gəlmişkən, ”Media haqqında” yeni qanun layihəsində TV və radiolar üçün nəzərdə tutulan vəzifə və yayıma dair tələblərdə bu məqama xüsusilə həssas diqqət yetirilib. Layihəyə əsasən, hüzn və matəm günlərində komediya və erotik filmlər, yumoristik, əyləncəli, ümumiyyətlə, matəm günlərinin mahiyyətinə uyğun olmayan musiqi janrında proqramlar, o cümlədən reklamlar yayımlanmamalıdır. Bununla yanaşı televiziya və radiolar ən azı hər 2 saatdan bir dəfə hüzn və matəm günü ilə bağlı ictimaiyyətə məlumat verməlidirlər. Bəli, aydındır ki, mənəviyyat məsələsi qanunla tənzimlənmir. Hər halda matəm və hüzn günlərində saat 12:00-da bir dəqiqəlik sükut elan edilməsi qanun layihəsinə salınıb ki, mənəviyyat boşluğumuzu vətəndaş məsuliyyəti ilə qanunun ayrıca, xüsusi maddəsi doldursun”.

**İsmayıl**

# Zaxarovanın emosional açıqlaması anlaşılandır

## Donbasda baş verən hadisələr məhz Ankaranın dəstəyi ilə Kiyevin xeyrinə dəyişməkdədir

İsmayıl Qocayev

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Türkiyə tərəfinin Donbas problemi ilə bağlı Ukrayna-Rusiya arasında vasitəçilik etmək təklifinə münasibət bildirib.**

Zaxarova deyib ki, Ukraynanın daxilində olan problemlə bağlı Türkiyənin vasitəçiliyindən söhbət gedə bilməz. XİN rəsmisi Donbas münaqişəsinin Ukraynanın daxili problemi olduğunu söyləyib: ”Rusiya münaqişədə tərəf deyil. Bu, Kiyevin Donbasla olan problemidir. Biz Rusiyanı bu münaqişədə tərəf kimi göstərmək cəhdlərinə imkan verməyəcəyik. Ona görə də burada Türkiyənin Ukrayna və Rusiya arasında vasitəçiliyindən söhbət gedə bilməz. Bununla belə, biz Türkiyə tərəfinə, xüsusi ilə də prezidentinə təşəkkürümüzü bildiririk. Ankara Kiyevi Donbasa qarşı aqressiv fəaliyyət planından çəkindirə bilər”. Xatırladaq ki, Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu hər iki tərəflə - Rusiya və Ukrayna ilə təmasların davam etdiyini bildirib. Nazir bildirib ki, Ankara hökuməti həm Rusiyaya, həm də Ukraynaya gərginliyi azaldacaq addımlar atmağı və daha sakit qalmağı tövsiyə edir: ”Yaxın keçmişdə iki ölkənin xarici işlər nazirləri ilə görüşdüm. Cümə günü Prezidentimiz cənab Ərdoğan Rusiya Prezidenti Vladimir Putinlə danışacaq. Hər iki ölkə ilə danışıqlar aparırıq”. Çavuşoğlu Rusiyaya qarşı sanksiyaları dəstəkləmədiyini deyib. Bildirib ki, Rusiyaya qarşı sanksiyalar problemi keçmişdə həll edə bilmədiyi kimi, indi də həll etməyəcək: ”Biz bir sıra ölkələrə, bəzən Türkiyəyə qarşı da sanksiyaların tətbiq olunduğunu görmüşük. Amma bu, problemi həll etmir. Deməli, biz yalnız sanksiyalarla Ukraynaya yardım edə bilməyəcəyik”.



### “Türkiyə Rusiya ilə danışmağın dilini bilir”

**Ankaranın Rusiya-Ukrayna arasında vasitəçilik etməsi ilə bağlı ”Şərq”ə danışan Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev vurğulayıb ki, Ankara-Moskva münasibətləri qeyri-standart, lakin müəyyən edilmiş xətt üzrə davam edir. Partiya təmsilçisi bəyan edib ki, Türkiyə və Rusiya fərqli rəqib düşərgələri təmsil etmələrinə baxmayaraq, kifayət qədər ehtiyatla ikitərəfli münasibətlər qurmağa nail olublar:** ”Suriya və Qarabağda baş verən proseslər fonunda hər iki tərəfin maraqlarını təmin edən fəaliyyətlər mövcuddur. Bu münasibətlərin qurulmasında dominant tərəf təbii ki, Türkiyədir. Türkiyə öz hərbi potensialı və siyasi fəaliyyəti ilə Rusiyanı fakt qarşısında qoyaraq, ona əməkdaşlıqdan başqa seçim buraxmır. Hazırda Ukraynada, Donbasda baş verən hadisələr Türkiyənin dəstəyi ilə rəsmi Kiyevin xeyrinə dəyişməkdədir. Rusiya bundan çox narahatdır və narazılığını açıq ifadə edir. Kreml fərqindədir ki, ədalətin və haqqın yanında olan Türkiyənin obyektiv vasitəçiliyi Moskvaya sərf etmir. Mariya Zaxarovanın Türkiyənin Donbas məsələsində siyasi aktivliyindən narahatlığı açıqca bəyan etməsi Rusiyanın növbəti uğursuzluqdan qorxması ilə əlaqədardır. Türkiyə Xarici işlər naziri Çavuşoğlu bildirdi ki, Rusiyanı sanksiyalarla çəkindirmək mümkün olmayacaq. Görünür, qardaş Türkiyə problemin həlli yollarını bilir. Hesab edirəm, müsbət nəticələri yaxında görəcəyik. Türkiyə Rusiya ilə danışmağın dilini bilir”.

# ABŞ Azərbaycana daha 8 minaaxtaran it göndərib

## Yerdə qalan 10 baş itlərin agentliyə təhvili 2022- 2023- cü illərdə gözlənilir



**İşğaldan azad edilən Qarabağda minatəmizləmə əməliyyatlarına daha 8 baş it qatılacaq. Marşal İrsi İnstitutu (Marshall Legacy Institute, MLI) tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) verilən itlərin sayı 20-yə çatdı. Yerdə qalan 10 baş itlərin agentliyə təhvili 2022- 2023- cü illərdə gözlənilir. Xatırladaq ki, cari ilin 26 avqust tarixində imzalanmış Anlaşma Memorandumu çərçivəsində, MLİ tərəfindən ANAMA-ya veriləcək itlərin sayı 30-dur.**

ANAMA-dan bildirilib ki, göndərilən itlərin 6-sı ANAMA-nın, qalan 2-si isə Marşal İrsi İnstitutu tərəfindən cəlb edilən donorların maliyyə dəstəyi ilə alınıb.

Öncədən göndərilən minaaxtaran itlər Agentliyin Horadiz Regional Mərkəzində öz bələdçisi ilə uyğunlaşma təlimi və Beynəlxalq Minatəmizləmə Standartları (IMAS) üzrə akkreditasiyadan keçirilərək, işğaldan azad edilən ərazilərdə əməliyyatlara cəlb olunublar. Minatəmizləmə əməliyyatlarında əsasən Alman Ovçarkası və Belçika Malinua cinsindən olan itlərə üstünlük verilir. MAİ-lərlə istifadə olunan dil ingilis və holland dilləridir. İtlər 3 ayından etibarən onlar üçün ayrılmış xüsusi oyun meydançasında təlimlərə başlayır. 18 ayınadək dörd-ayaqlı köməkçilər müxtəlif növ partlayıcı qurğuların aşkar edilməsi bacarığına yiyələnir. Sonda akkreditasiyadan keçmiş MAİ və bələdçisi sahə əməliyyatlarına cəlb olunur.

MAİ-lər işə cəlb edilməzdən əvvəl bütün tibbi amillər nəzərdən keçirilir və itin sağlamlığı barədə sertifikat əldə edilir. Əməliyyatlarda iştirak edən MAİ-lər tam sağlam olmalıdır. Həmçinin, baytar nəzarəti altında itlər 6 ayından etibarən qrafik üzrə və region dəyişikliyi zamanı peyvənd olunurlar.

Əllə və mexaniki vasitələrlə təmizləmə əməliyyatları ilə birgə xüsusi təlim keçmiş minaaxtaran itlərin də ərazilərin minalardan təmizlənməsində və insan həyatının xilas edilməsində rolu əvəzsizdir. Minaaxtaran itlər təmizləmə əməliyyatlarında, texniki tədqiqatda, şübhəli sahələrin qısaldılmasında, mexaniki yolla yoxlanılmış sahələrdə aparılan keyfiyyətə nəzarət prosedurlarında istifadə olunur.

Qeyd edək ki, itlərin Azərbaycana gətirilməsi Silk Way West Airlines şirkəti tərəfindən təmənnasız olaraq mərhələli şəkildə həyata keçirilir.

ANAMA ilə sıx əməkdaşlıq çərçivəsində 2005-ci ildən etibarən MLI Agentliyin minaaxtaran itlərinin potensialının artırılmasına dəstək verir. Marşal İrsi İnstitutu tərəfindən keçirilən ”Minatəmizləmə və insan həyatının xilas edilməsi” yarışmasında fərqləndiyinə görə müxtəlif illərdə Agentliyin 3 minaaxtaran iti qalib seçilmişdir.



# Zəngəzur dəhlizinin tərkib hissəsi olan dəmir yolu xətti yenidən qurulur

## Dəmir yolu xətti bütövlükdə dron vasitəsilə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb



**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə bir sıra mühüm infrastruktur layihələrinin icrasına başlanıldı. Belə layihələrdən biri Horadiz-Ağbənd dəmir yolu xəttinin yenidən qurulmasıdır.**

Azərtac xəbər verir ki, ölkəmiz üçün həm strateji, həm də iqtisadi əhəmiyyətə malik Horadiz-Ağbənd dəmir yolu xətti Zəngəzur koridorunun tərkib hissəsidir. Layihənin icrası nəticəsində Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birbaşa nəqliyyat əlaqələri yaranacaq, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq. Dəmir yolu işğaldan azad edilmiş torpaqlara həm vətəndaşların gediş-gəlişi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə birləşəcək. Zəngəzur dəhlizinin açılması bölgənin və eləcə də türkdilli ölkələrin iqtisadiyyatına da öz təsirini göstərəcək, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyətini daha da artıracaq.

Horadiz-Ağbənd dəmir yolu xətti 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən torpaqlarımızın işğal edilməsindən sonra dağıdılmış və fəaliyyətini dayandırmışdı. 27 ildir ki, qatarların son dayanacağı Füzuli rayonunun Horadiz stansiyasıdır. Lakin düşmən üzərində qazandığımız Qələbə ilə bu yol da aydınlığa çıxır. Hazırda Horadizdən başlayaraq Zəngilan rayonunun Ağbənd qəsəbəsinədək qədər uzanan dəmir yolu xətti yenidən tikilir.

Prezident İlham Əliyev tərəfindən 2021-ci il fevralın 14-də təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrə bərabərdir. Birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq, həmçinin layihə çərçivəsində ümumilikdə 300-dən artıq süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Horadiz stansiyası ilə yanaşı, digər yeddi stansiya - Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd stansiyaları tamamilə yenidən tikiləcək.

Dəmir yolu xətti bütövlükdə dron vasitəsilə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb. Hazırda minalardan təmizlənmiş 40 kilometrlik hissəsində torpaq yatağının hazırlanması, həmçinin süni qurğuların tikintisi həyata keçirilir. Artıq 21 kilometrlik hissədə torpaq yatağı hazırlanıb, qaya daşı və çınqıl materialları tökülüb. 3 kilometr hissədə relslər qoyulub. Eyni zamanda, süni qurğuların, o cümlədən körpü və dəmir-beton boruların tikintisi aparılır. Horadiz-Ağbənd dəmir yolu xəttinin yenidən qurulması işlərinin 2022-ci ilin sonunadək yekunlaşması nəzərdə tutulur. Böyük strateji əhəmiyyəti olan Horadiz-Ağbənd dəmir yolu xəttinin inşası işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialına böyük töhfə verəcək.

# Gözlər Brüsseldə

## Fuad Abbasov: ”Orda veriləcək qərarlarla Rusiyanın bu siyasətinin nə qədər uğurlu olduğunu görəcəyik”



Günəş Mərd

**Xəbər verdiyimiz kimi, noyabrın 26-da Soçidə Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Görüşdə bölgədə sabitliyin güclənməsi istiqamətində görülən işlərdən söz açılıb. Qarabağda dinc həyatın bərqərar olması və s. kimi məsələlər müzakirə olunub. Sonda Soçi görüşünün nəticələrinə dair Bəyanat imzalanıb.**

Sənədə əsasən Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə dair razılığa gəlinib. Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımların atılması nəzərdə tutulub. Sərhədlərin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması qərara alınıb. 2021-ci il 11 yanvar tarixli Bəyanata müvafiq olaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirlərinin müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədrinin müavininin birgə sədrliyi ilə regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyəti yüksək qiymətləndirib. Regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

**Görüşün əhəmiyyətini ”Şərq”ə şərh edən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov Zəngəzur koridorunun açılması üçün Moskvada belə bir görüşün keçirilməsinə ehtiyac olmadığını bildirib:** ”Biz görürük ki, Rusiya bölgədə öz varlığını sübut etmək və bunu Brüssel görüşündən öncə Avropaya eşitdirmək üçün əvvəlcə Azərbaycan-Ermənistan sərhədində münaqişə yaratdı. Daha sonra guya bu problemləri həll etmək istədiyi üçün tərəfləri Soçiyə dəvət edib. Azərbaycan prezidenti və Ermənistanın baş nazirinə bir zeytun ağacının budağını hədiyyə edərək sülhə çağırıb”.

Siyasi şərhçi Rusiyanın dondurulmuş münaqişələrdə öz xarici siyasətini yürütmə diplomatiyasına diqqət çəkərək sərhəddə yaranmış qarşıdurmanın məhz rəsmi Moskvanın ”əli” ilə həyata keçirildiyini vurğulayıb: ”Diqqət etdinizsə, Putin görüşün əvvəlində tərəfləri Moskvaya sərhəddə meydana gəlmiş gərginliklə bağlı dəvət etdiyini vurğuladı. Bununla Avropaya burda ”ev sahibi Rusiyadır” mesajı göndərilir”.

**F.Abbasov Ermənistandakı mövcud vəziyyətə nəzər yetirib:** ”Orduda çoxsaylı rusiyayönümlü hərbçi var. Onlar istənilən vaxt Moskvadan gələn əmrləri həyata keçirməyə hazırdırlar. Bu, Paşinyanın da əlini-qolunu bağlayır.

Rusiya son proseslərlə bölgədəki ev sahibliyini xaricdəki Ermənistan havadarlarına, o cümlədən Avropaya eşitdirmək istəyir.

İndi Brüssel görüşünü gözləmək qalır. Orda veriləcək qərarlarla Rusiyanın bu siyasətinin nə qədər uğurlu olduğunu görəcəyik”.

**Günəş Mərd**

# Atəş səsləri...

## İran-Əfqanıstan sərhədində silahlı toqquşmalar baş verib



**İranın sərhəd qoşunları və ”Taliban” arasında iki ölkə sərhədində silahlı toqquşmalar baş verib. Trend-in ”Tasnim” agentilyinə istinadən verdiyi məlumata görə, silahlı toqquşmalara səbəb sərhəddə anlaşılmamazlığın baş verməsi olub.**

Belə ki, son illər ərzində İran narkotrafikin qarşısını almaq məqsədilə Əfqanıstanla sərhəddən bir qədər aralıda divarlar ucaldıb. Bir neçə iranlı fermerin bu divarları aşmasından sonra ”Taliban” üzvləri bu hərəkəti ölkə sərhədinin pozulması kimi dəyərləndiriblər və fermerlərə atış açıblar.

Buna cavab olaraq İranın sərhəd qoşunları da ”Taliban” istiqamətində atəş açıb. Hazırda atışma dayanıb. İran tərəfinin açılamasına əsasən, iranlı fermerlər divarı aşsalar da ölkə sərhədləri daxilində qalıblar və Əfqanıstan ərazisinə keçməyiblər.

Eyni zamanda İran tərəfinin toqquşmalar zamanı bir neçə nəzarət-buraxılış məntəqəsi üzərində nəzarəti itirməsi barədə xəbərlər də rəsmi şəxslər tərəfindən təkzib edilib.



# ABŞ-da "omikron" ştammına ilk yoluxma halı aşkarlanıb

**ABŞ-da koronavirusun yeni ”omikron” ştammına ilk yoluxma halı qeydə alınıb.**

Trend-in məlumatına görə, bu barədə ölkənin Federal Xəstəliklərə Nəzarət və Profilaktikası Mərkəzlərindən bildiriblər.

Məlumata əsasən, ilk yoluxma halı ölkənin Kalifroniya ştatında aşkarlanıb. Yoluxan şəxs noyabrın 22-də Cənubi Afrika Respublikasından qayıdıb. Bildirilir ki, ”omikron” ştammının aşkarlandığı şəxs koronavirusa qarşı tam peyvənd olunub və hazırda karantinə yerləşdirilib.

*Qeyd edək ki, koronavirusun ilk dəfə Afrikanın cənubunda aşkarlanan B.1.1.529 ştammına ”omikron” adı verilib. Bildirilib ki, sözügedən ştammda çox sayda mutasiyalar mövcuddur və digər ştammlardan daha yoluxucu olması ilə bağlı şübhələr var. Ehtiyat tədbiri olaraq, bir sıra ölkələr Cənubi Afrika Respublikası və Afrikanın cənubundakı digər dövlətlər üçün sərhədlərini bağlayıblar.*

# Sanksiyalar güclənəcək

## Qərb-Rusiya qarşıdurması daha ağır çalar alır



İsmayıl Qocayev

**Kiyev və Qərb ölkələri Rusiyanın Ukrayna sərhədlərində ”aqressiv hərəkətləri”nin artdığını iddia edirlər. Moskva isə bəyan edir ki, o, öz ərazisində və öz qaydalarına uyğun hərəkət edir. NATO-nun baş katibi Yens Stoltenberq Almaniyanın ”Welt” qəzetinə açıqlamasında bildirib ki, Rusiya ordusunun Ukrayna sərhədinə doğru köçürülməsi ”sadəcə blef” kimi qiymətləndirilə bilməz.**

Baş katibin sözlərinə görə, bu il ikinci dəfədir ki, Rusiya minlərlə əsgərini Ukrayna sərhədinə köçürür, təlimlər keçir: ”NATO gələcəkdə özünü hücumdan qorumaq üçün Ukraynaya siyasi və praktiki dəstəyi davam etdirəcək. Rusiyanı gərginliyi azaltmağa çağırıram”. Kremlin sözçüsü Dmitri Peskov isə vurğulayıb ki, Rusiyanın Ukraynaya qarşı hər hansı hücum planı yoxdur. Xatırladaq ki, Rusiya Belarus ilə birlikdə keçirdiyi hərbi təlimlərin aktiv mərhələsinin ikinci günündə yeni döyüş robotları və taktiki vasitələrdən istifadə edib. Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, qoşunlar uzaqdan idarə olunan, qumbaraatan və pulemyotla silahlanmış ”Platform-M” döyüş robotlarından istifadə ediblər. Rusiya xəbər agentlikləri bu cür platformaların ilk dəfə təlimlərdə iştirak etdiyini açıqlayıb. Gələn həftənin cümə axşamına qədər davam edəcək ”Zapad-2021” hərbi təlimləri Avropa İttifaqının sərhədlərinə yaxın ərazidə keçirilir. Ona görə də təlimlər Ukrayna və bəzi NATO ölkələri tərəfindən narahatlıqla qarşılanıb. Rusiya Prezidenti Vladimir Putin təlimlərin hər hansı xarici qüvvəyə qarşı yönəlmədiyini deyib. O, Rusiyanın və müttəfiqlərinin sərhədləri yaxınlığında NATO-nun aktivliyinin artdığını nəzərə alaraq təlimlərin məntiqli olduğunu söyləyib. Ukrayna, Polşa və Litva isə belə böyük təlimlərin təxribat xarakterli olduğunu iddia edirlər. Almaniya Xarici işlər naziri Hayko Maas deyib ki, Ukraynanın ərazi bütövlüyü pozularsa, o zaman Rusiya üçün ciddi siyasi və iqtisadi nəticələrə gətirib çıxara bilər.

***"Hətta Vaşinqtonda ölkəni Rusiya ilə açıq hərbi savaşa səsləyənlər var"***

**Tərəflərin nüfuz mübarizəsini ”Şərq”ə təhlil edən politoloq Azər Rəşidoğlu hesab edir ki, Rusiya-Ukrayna gərginliyi Qərb-Rusiya qarşıdurmasının davam edəcəyini göstərir. Analitikin sözlərinə görə, gərginlik ilk dəfə yaşanmasa da, budəfəki problem daha ağır çalar alıb:** ”Hətta Vaşinqtonda ölkəni Rusiya ilə açıq hərbi savaşa səsləyənlər var. Ağ Evin hazırkı strategiyası xaricdəki problemlərin həlli üçün hərbi gücdən istifadəni nəzərdə tutur. Lakin düşünürəm ki, daha çox iqtisadi sanksiyaların müzakirəsi gedəcək. Rusiya ağır şəkildə sanksiyalara məruz qalsa da, bu ölkə ilə qarşıdurma arzuedilməzdir. Ən azı ona görə ki, Rusiya nüvə dövlətidir, onunla açıq təhdidlə danışmaq təhlükəlidir. ABŞ da nüvə silahına malik ölkədir. İki nüvə gücünün qarşıdurmasının nə demək olduğunu isə əlavə şərh etməyə ehtiyac yoxdur”.

**A.Rəşidoğlu bildirib ki, Rusiya ancaq postsovet məkanında təxribatlara əl ata bilər. Lakin bu da elə asan məsələ olmayacaq:** ”Beynəlxalq aləm buna ciddi reaksiya verəcək. Bütün bunlara baxmayaraq, Rusiya vəziyyətdən çıxmaq üçün dünyanın müxtəlif bölgələrində lokal və irimiqyaslı hərbi əməliyyatlara başlaya bilər. Rusiyanın dünyanın müxtəlif ərazilərində ilhaqçılıq və işğalçılıq siyasəti, Ukrayna, Azərbaycan, Moldova, Gürcüstanda, habelə Yaxın Şərqdəki destruktiv fəaliyyəti Qərbi sanksiyalara vadar edir. Məhz bu və digər səbəblər nəticəsində Qərblə Rusiya arasında böhranlı vəziyyət səngimir. Hesab edirəm ki, bu proses davam edəcək”.

Rusiya-ABŞ qarşıdurması bölgə ölkələrinin siyasətinə də təsirsiz qalmaya bilər: ”Bölgə ölkələrinin maraqlarına da nəzər yetirmək lazımdır. Məsələn, ABŞ-la gərgin münasibətlər yaşayan Türkiyə Rusiya ilə yaxınlaşmaqda davam edir. Türkiyə öz maraqlarına xidmət edən siyasi kursa üstünlük verir və çalışır ki, digər rəqibləri ilə də əlaqələri normallaşdırsın”.

**Mədədə yanma hissi nədən baş verir? Açığı, belə diskomfort yaşayan insanlar az deyil. ”Şərq” ”Milliyet.com”da yer alan mütəxəssis rəyini təqdim edir. Mədə yanması, mədədə turşuluğun artması mədə və qida borusundakı qastrointestinal (mədə-bağırsaq) xəstəliklərdən, ya da qidalanmada yol verilən yanlışlıqlardan qaynaqlanır.**



# 7 qida əladır

## Mədə “yanması”nı anında bitirir

Həzm prosesində yaranan problemlər mədədə yanma hissini artıra bilir. Bunun qarşısı necə alına bilər, sualına dietoloq Tuğba Yaprak cavab verib. Dietoloq qeyd edib ki, mədə yanmasının səbəbləri yanlış qidalanma, normadan artıq qida qəbulu, qidalanmadan dərhal sonra yatmaq (yemək qəbulundan ən azı 3 saat sonra yatmaq məsləhətdir), ac qarına siqaret çəkmək, alkoqollu içkilərin qəbulu, rejimsiz yuxu və stresdir. Həmçinin, yağlı yeməklər, çox isti qidalar, şokolad, tərkibində yüksək kafein olan içkilər və qidalar, məsələn, qara çay, qəhvə, kəskin dadlı, acı ədviyyatlar, karbonatlı içkilər, pomidor, turunckimilər, soğan, sarımsaq kimi qidaların miqdardan artıq qəbulu. Bəs mədə yanmasının qarşısını necə almaq olar? Qısaca desək, mədə yanmasına səbəb olan amilləri aradan qaldırmaqla. Yəni insan sağlam həyat tərzi keçirməlidir. Amma müasir zamanda, stres, həyəcan, min cür xəstəlik və problemlər arasında bunu etmək, əlbəttə, çox çətindir. Lakin mümkünsüz deyil. Yenə də dietoloq məsləhətlərini əsirgəməyib. Və mədə yanmasını azaldan, qarşısını ala bilən 7 qidanı ”nişan” verib. Dietoloq məsləhət görür ki, qidalanma az miqdarda, lakin qısa fasilələrlə olmalıdır. Hansı qidanın qəbulundan sonra mədədə daha çox yanma hissi yaranır, buna də diqqət edilməlidir. Sağlam qidalanma üçün lifli məhsullar və probiotik ərzaqlar seçilməlidir. Yanma hissini azaltmaq üçün zəncəfil (həzm prosesinə kömək edir, mədə şişkinliyini və mədə bulanmasına qarşı yardım edir), karbonatlı su qarışığı (karbonatlı su bədənin pH müvazinətini qoruyur, mədə yanmasının qarşısını alır), bir stəkan soyuq süd, biyan kökü (mədədəki narahatlığı zəiflədən bitkidir), alma (almanın tərkibində liflər yüksək olduğundan həzm prosesinə kömək edir, nəticədə mədə rahatsızlığının qarşısı alınır), gün ərzində 10-15 ədəd badam (badam da yüksək lif faizinə malikdir) və bal. Təbii bal həzm prosesini qaydaya salmaq üçün ən üstün qidadır. Gün ərzində 1 çay qaşığı təbii bal udmaq və ya çaya, ilıq suya salıb qarışdırıb içmək mədə yanmasının qarşısını alacaq, həzm prosesini yüngülləşdirəcək.

**Məlahət**



# "Narkomaniya qəsdən yayılır, ölkəmizə ötürülür"

## “Mən indiyə kimi məscidlərdə narkomaniya əleyhinə çıxışlar eşitməmişəm”

**XXI əsrin ən böyük bəlalarından biri narkotik maddələr və psixotrop vasitələrin qanunsuz dövriyyəsi və narkomaniyadır. Təəssüflər ki, Azərbaycan da bu bəladan yan keçməyib. Ölkəmizdə narkotik maddələr və psixotrop vasitələrin yayılması ictimaiyyət nümayəndələri ilə yanaşı, dövlət qurumlarını da ciddi narahat etməkdədir.**

Narkotik maddələr və psixotrop vasitələrlə mübarizə ilə əlaqədar əsas görüləcək işlər onların satışını təşkil edən şəxslərin məsuliyyətə cəlb olunması və həmin maddələrin mənfi təsirlərini özündə əks etdirən təbliğat işinin aparılmasıdır. Statistik məlumatlara görə, gənclər arasında narkotik istifadəçilərin sayı çoxalmaqdadır. Xüsusən, orta məktəb şagirdləri və ali məktəb tələbələri arasında narkomaniya çox geniş şəkildə yayılıb. Vəziyyət o həddə çatıb ki, gənclər narkotik maddələrdən açıq şəkildə istifadə edirlər. Azyaşlılar içərisində də bu bəlaya duçar olanlar az deyil. Problemlə bağlı mediada tənqidi yazılar dərc olunur, sosial şəbəkələrdə müzakirələr aparılır, müxtəlif fikirlər səsləndirilir. Lakin təkcə tənqidlə, yaxud iradla iş bitmir. Mövcud təhlükəni aradan qaldırmaq üçün cəmiyyətin və müvafiq qurumların birgə səyləri tələb olunur. Xatırladaq ki, ötən gün Milli Məclisdə ”Narkomaniya ilə mübarizə ailə sağlamlığının təminatıdır” mövzusunda dinləmə keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, ailə sağlam olmasa, cəmiyyət də sağlam olmaz. O bildirib ki, din sahəsində bu istiqamətdə müqəddəs kitablarda da qeydlər var: ”Bu istiqamətdə ən düzgün mübarizəyə inam və inandırmaqla nail ola bilərik. Bütün dinlərə aid olan kitablarda uyuşdurucular qarşı çıxışlar olub. Narkomaniya ilə mübarizə ümumbəşəri xarakter daşıyır”.

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov də vurğulayıb ki, ölkənin inzibati rayonlarında yaşayan gənclərin işlə təmin olunması, həmin rayonlarda idman və digər sahələrin inkişaf etdirilməsi nəticəsində həmin gənclərin boş vaxtının qalmasının qarşısı alına bilər: ”Narkomaniyaya qarşı mübarizədə dövlət orqanları ilə bərabər cəmiyyət də aktiv iştirak etməlidir. Müxtəlif dini tədbirlərdə də antinarkotik mövzusunda çıxışlara geniş yer verilsə, yaxşı olar. Eyni zamanda, narkotik istifadəçisi olmuş və sonradan normal həyata qayıtmış şəxslərlə media sahəsində müsahibələr təşkil olunması da bu mübarizənin bir növü olardı. Təhsil müəssisələrində narkotiklə bağlı tibbi müəssisələrin təşkil edilməsini təklif edirik.

**İlahiyyatçı-alim, siyasi şərhçi Tural İrfan da ”Şərq”ə açıqlamasında narkomaniyanın böyük bəla olduğunu və dünyada bununla bağlı mütəmadi tədbirlərin görüldüyünü deyib. Ekspert təəssüflə qeyd edib ki, son vaxtlar ölkəmizdə də narkomaniya ciddi ölçüdə artmaqdadır:** ”İslam dininə görə narkotik maddələrin istifadəsi, satışı, alveri haram və böyük günahdır. Cənub bölgəsində narkomaniyanın artması qonşumuz İranla bağlıdır. O ölkədə məqsədyönlü şəkildə dövlət siyasətinə çevrilmiş narkomaniya qəsdən yayılır və ölkəmizə ötürülür. 44 günlük Qarabağ savaşından sonra ölkəmizdə cənubdan gətirilən külli miqdarda narkotikin artması da İranın Qarabağ məsələsində sərgilədiyi mövqe və addımları ilə paralellik təşkil edirdi. Din adı altında radikallıq, məzhəb ayrı-seçkiliyi nə qədər qorxuludursa, narkotik maddələrin yayılması və təbliği daha çox təhlükəlidir. Təbii ki, bu istiqamətdə tədbirlər və maarifləndirmə aparmaq mütləqdir. Ancaq nəzərə alaq ki, məscidlərimizin çoxu İranpərəst mollalara bağlıdır. Mən ilahiyyatçı kimi indiyə kimi məscidlərdə narkomaniya əleyhinə çıxışlar edildiyini, təbliğat aparıldığını görməmişəm. Lakin Qarabağ savaşından sonra çox şey aydın oldu. Din məsələsinin İran orbitindən çıxması zəminində narkomaniyaya qarşı mübarizəyə dindarların da qoşulmasına müsbət yanaşıram. Nə qədər minbərdən fars nağılı danışmaq olar?! Artıq xalqımız da onların nağıllarından diksinib”.

***Tural İrfan: "Əsl din xadimlərinə, ilahiyyatçılara şərait yaratmaq lazımdır ki, maarifləndirmə işində dövlət qurumlarına yardım etsinlər, gənclər arasında maarifləndirmə aparsınlar"***

**T.İrfan vurğulayıb ki, əhali əsl din xadimlərinə, milli ruhlu ilahiyyatçılara inanır və rəğbət bəsləyir:** ”Ona görə də məhz həmin ilahiyyatçılara şərait yaratmaq lazımdır ki, maarifləndirmə işində dövlət qurumlarına yardım etsinlər, gənclər arasında maarifləndirmə aparsınlar. Məscidlərimizə milli ruhlu, savadlı imamlar rəhbərlik etməlidir. Əfsuslar olsun ki, narkomaniya ilə dini xurafat paralel təbliğ edilir. Narkotik vasitələri, avara həyatını, cinayətkar aləmi təbliğ edən minlərlə bayağı mahnılar, mənasız meyxanalar cəmiyyəti bürüyüb. Taksiyə minəndə, kafedə oturanda peşman olursan, hər yerdə meyxanalar baş alıb gedir. Bunların cəmiyyət, xüsusən gənc nəsil, azyaşlılar üzərində böyük təsiri var. Gəncləri məqsədyönlü şəkildə təhlükəli istiqamətə meyilləndirirlər. Təbliğat və maarifləndirmə birtərəfli yox, hərtərəfli olmalıdır”.

**İsmayıl Qocayev**

# Elnarə Xəlilovanın mayor əri jurnalistlərə hücum etdi



**Dövlət Sərhəd Xidmətinin zabiti, mayor Rövşən Cahangirov şəhid pilotların dəfn mərasimində jurnalistlərə hücum edib.**

”Bakupost” xəbər verir ki, hadisə tanınmış jurnalist, Baku.TV-nin əməkdaşı Tural Museyibov DSX-nin rəisi Elçin Quliyevdən açıqlama almaq istəyərkən baş verib.

R.Cahangirov T.Museyibovu itələyib, ərazidən uzaqlaşdırmaq istəyib, bu prosesi çəkən operatora isə yumruq atıb.

Rövşən Cahangirov əvvəllər ”Space” və ”Lider” TV-də çalışıb.

Keçmiş media əməkdaşının özünü qoçu, qolu zorlu, zorba və kobud aparması ictimai qınaqla nəticələnib.

*Qeyd edək ki, R.Cahangirov müğənni Elnarə Xəlilovanın həyat yoldaşıdır.*




# Azərbaycanda nə qədər "CoronaVac" və "Sputnik V" ehtiyatı olduğu açıqlanıb

**Azərbaycanda olan ”CoronaVac” və ”Sputnik V” peyvəndlərinin ehtiyat miqdarı açıqlanıb.**

İcbari Tibi Sığorta üzrə Dövlət Agentliyindən “Şərq”-ə bildirilib ki, hazırda 2 milyon 376 min 845 doza ”CoronaVac”, 20 000 doza ”Sputnik V” vaksini anbarda ehtiyatda var.

*Qeyd olunub ki, əlavə olaraq tibb müəssisələrində hazırda istifadə edilən vaksin dozaları mövcuddur.*

# Belarus prezidentinin vəziyyəti ağırdır

## Lukaşenko Rusiyanın xoşuna gələcək istənilən addımı atmağa hazırdır

**Bir müddət bundan öncə Belarus Prezidenti Aleksandr Lukaşenko Krıma səfər etmək niyyətində olduğunu söyləyib. Bu zaman o, yarımadanın 2014-cü ildə keçirilən referendumdan sonra Rusiyaya çevrildiyini vurğulayıb. Rəsmi Kiyevdən Lukaşenkonun açıqlamasına cavab olaraq bildirib ki, Belarus Krımı Rusiya ərazisi kimi tanısa, Ukrayna tam hərəkətə keçəcək.**



***Çünki bilir ki, Qərb dünyasında onu Rusiyadan başqa kimsə qoruya bilməz***

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu isə Riqada keçirilən NATO xarici işlər nazirlərinin iclasında çıxışı zamanı dekabrın 3-də Türkiyə və Rusiya dövlət başçıları arasında telefon danışığının olacağını deyib. Onun sözlərinə görə, tərəflər arasında əsasən Ukrayna mövzusu müzakirə olunacaq. M.Çavuşoğlu həmçinin Türkiyənin iki ölkə arasındakı gərginliyin azaldılmasının tərəfdarı olduğunu diqqətə çatdırıb. Maraqlıdır, mövcud durumda Belarus-Ukrayna arasında yaranmış gərginlik nə ilə nəticələnəcək? Türkiyənin bu məsələdəki mövqeyi hansı mahiyyəti daşıyır? Krım məsələsi yenidən alovlana bilərmi? Prosesin bundan sonrakı mərhələlərində nələr gözlənilir?

**Mövcud durumu politoloq Natiq Miri ”Şərq”ə dəyərləndirib. O, Krımın Rusiya tərəfindən işğal və ilhaq olunduğunu və buna hüquqi don geyindirmək üçün referendum da keçirildiyini bildirib:** ”Bu referendum təbii ki, Rusiya tərəfindən qeyri-demokratik keçirilib. Artıq Krımı Rusiyanın əlindən almaq, ələlxüsus da Putinin dövründə qeyri-mümkündür. Lukaşenkonun bu davranışı onun artıq Krıma Rusiyanın əyaləti kimi yanaşdığını göstərir. Əslində hazırda Belarus-Polşa sərhədində miqrantlarla bağlı yaranan süni problem də dolayısıyla Rusiyanın təhriki ilə baş verib. Hadisənin özü də göstərir ki, Lukaşenko çox çətin vəziyyətdədir. Qərb dünyasında onu Rusiyadan başqa kimsə qoruya bilməz. Ona görə Rusiyanın xoşuna gələcək istənilən addımı atmağa hazırdır”. Politoloq Lukaşenkonun Ukrayna-Rusiya arasında müharibə başlayacağı təqdirdə Ukraynaya qarşı Rusiya tərəfdən belarusların da vuruşacağı ilə bağlı bəzi sayıqlamalar etdiyini xatırladıb və bunun Belarusun artıq siyasi arenada müstəqil addım atmaq imkanın olmadığının göstəricisi olduğunu deyib. N.Miri Rusiya-Ukrayna arasında baş verə biləcək müharibə təhlükəsinə də toxunub: ”Müharibə Krımla deyil, Donbasla bağlı ola bilər. Rusiyada bu yöndə çox ciddi bir hərbi gərginlik yaranıb. Bilirsiniz ki, yüz minə yaxın Rusiya qoşunu Ukrayna sərhədinə yığılıb. Ağır texnikalar bu sərhəddə cəmləşib. Rəsmi Moskva bununla Ukraynanın Donbası azad etməsinin qarşısını almaq istəyir. Bunu bəhanə edərək bütünlükdə Donbasın bütün ərazilərini işğal etməklə gələcək perspektivdə buranı da Rusiyanın tərkib hissəsinə qatmaq istəyir. Hələlik böyük bir müharibənin başlayacağını proqnozlaşdırmıram”.

**Politoloq Türkiyənin bu məsələlərdəki mövqeyindən də danışıb:** ”Yaxın zamanda Türkiyə Ukrayna-Rusiya arasında yaranmış gərginliyin sabitləşməsi üçün yardım etmək istədiyini bildirdi. Ukrayna artıq bu məsələyə razılıq verib. Rusiya da bu yöndə qərar verəcəyini vurğulayıb. Ukrayna-Rusiya kontekstində Fransa-Almaniya-Rusiya-Ukrayna arasında dördlük format var. Bu ölkələrin hər birinin özünəməxsus geosiyasi və geoiqtisadi maraqları olduğu üçün zaman-zaman Rusiyaya müəyyən güzəştlər etməklə bu problemi həll edə bilməyiblər. Nəticədə dondurulmuş münaqişəyə çevrilib. Türkiyə elə bir ölkədir ki, hər zaman məzlumların yanında durub. O, istənilən bir məsələyə qoşulursa, bunu təkcə özünün siyasi maraqları üçün etmir. Bu gün Türkiyə bütün dünyanın vicdanı olaraq çıxış edir”.

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Azərbaycanlı tələbələr Türkiyədə təhsilə üstünlük verir

## Rafiq İsmayılov: "Ona görə ki, Türkiyədə təhsil Avropa standartlarına uyğundur"

Məlahət Rzayeva

**Azərbaycanın qardaş Türkiyə ilə təhsil sahəsində sıx əməkdaşlıq əlaqələri mövcuddur. Azərbaycan gənclərinin xaricdə təhsil baxımından ən çox seçim etdiyi ölkə məhz Türkiyədir. Təbiidir. Türkiyə ilə Azərbaycanın bağlılığının kökündə dayanan amilləri sadalamağa bizcə, ehtiyac yoxdur. Son illərdə Azərbaycanla Türkiyə təhsil sahəsində qarşılıqlı bir çox yeniliklərə də imza atıb. Bu barədə Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvar Azərbaycana səfəri zamanı danışıb.**

Xatırladaq ki, hazırda E.Özbarın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir. Azərbaycanın Təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazir qeyd edib ki, bu görüşün iki qardaş ölkənin ali təhsil sahəsində əlaqələrinin möhkəmlənməsində mühüm addım olacağına inanır. Görüşdə ali təhsil sahəsində mövcud əməkdaşlığa və gələcək perspektivlərə dair geniş fikir mübadiləsi aparılıb, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində 2021-ci ilin sentyabr ayından etibarən Azərbaycan Dövlət Aqrar Universiteti ilə Ege Universiteti arasında kənd təsərrüfatı sahəsində həyata keçirilən ikili diplom proqramı ikitərəfli əməkdaşlığın uğurlarından biri kimi qiymətləndirilib. "Türkiyə universitetlərini bitirmiş azərbaycanlı gənclər Azərbaycan, Türkiyə və Türk dünyasına böyük töhfələr verəcəklər". Bunu Türkiyə Ali Təhsil Şurasının (Yükseköğretim Kurulu) rəhbəri Erol Özvar qeyd edib. Erol Özvar Azərbaycanın Təhsil naziri Emin Əmrullayevlə görüşündə ali təhsil sahəsində əməkdaşlığa dair yeni mesajlar verib. Nazir Emin Əmrullayevi və onu müşayiət edən nümayəndə heyətini qəbul etməkdən məmnunluğunu ifadə edən Erol Özvar qeyd edib ki, bütün sahələrdə olduğu kimi, ali təhsil sahəsində də Azərbaycanla çox dərin kök salmış münasibətlərimiz var: "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ali Təhsil Şurasının nümayəndə heyəti kimi ali təhsil sahəsində yeni işgüzar əlaqələrin yaradılması üçün Milli təhsil naziri Mahmut Özərlə görüş keçirilmişdi. Həmin günlərdə İstanbulda keçirilən Türk Şurasının Təhsil Nazirlərinin Konfransında türk dövlətləri arasında təhsil sahəsində əməkdaşlıqla bağlı mühüm razılıqlar əldə edildi. Türkiyənin İstanbul şəhərində Türk Şurası Təhsil Nazirlərinin 6-cı iclası və Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 4-cü iclasında çıxış edən Emin Əmrullayev TDƏŞ çərçivəsində təhsil sahəsində irəli sürülən təşəbbüslər yö-



çox səmərəli müşavirə keçirəcəyik. İki qardaş ölkə kimi ali təhsil sahəsində atacağımız yeni və önəmli addımlarla iki ölkə arasında təhsil əlaqələrinin daha da dərinləşdirilməsi iradəmizi ifadə etmək istəyirəm". Türkiyədə 25 minə yaxın azərbaycanlı tələbənin təhsil aldığını bildirən Özvar deyib: "Türkiyə universitetlərində təhsilini başa vurmuş bu tələbələr ilk növbədə Azərbaycan, Türkiyə və Türk dünyasına böyük töhfələr verəcəklər".

Qeyd edək ki, bir müddət öncə Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti də Türkiyədə səfərdə olmuşdu və səfər çərçivəsində Türkiyənin nündə görülən işlər haqqında məlumat verib. Nazir "XV əsrə qədər Ortaq Türk Tarixi" dərsliyinin 2019-2020-cı tədris ilindən etibarən 151 yerli ümumi təhsil müəssisəsində fakultativ fənn kimi tədris olunduğunu bildirib. Bundan başqa, Təhsil Nazirliyinin ümumi təhsil müəssisələri şagirdlərinin mübadiləsində aktiv iştirak etməsi, 17-24 mart 2018-ci il tarixlərində keçirilmiş ikinci mübadilə proqramına ölkəmizin ev sahibliyi etməsi xüsusi vurğulanıb. Nazir həmçinin ali təhsil sahəsində əlaqələrin dərinləşməsi baxımından mühüm rola malik Türk Universitetləri Birliyinin bir müddət öncə keçirilmiş 5-ci konfransında Azərbaycan Dövlət İqtisad Universitetinin Birliyin üzvü seçildiyini qeyd etmişdi.

**Türkiyə ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığın müsbət istiqamətindən məmnunluq ifadə edən fəlsəfə doktoru Rafiq İsmayılov əlaqələrin nəinki hər iki ölkə, həmçinin bütün türk dünyası üçün önəmli olduğunu vurğuladı:**

- Türkiyə Cümhuriyyəti Ali Təhsil Şurasının sədri Erol Özvarın dediyi kimi, qardaş ölkədə 25 minə yaxın azərbaycanlı tələbə təhsil alır. Bu faktın özü ölkələrimiz arasında necə sıx əlaqələrin mövcud olduğunu təsdiq edir. Gənclər, tələbələr xaricdə təhsil barədə düşünərkən Qərbi Avropa ölkələri, ABŞ-la yanaşı Türkiyədə təhsilə də üstünlük verirlər. Ona görə ki, Türkiyədə təhsil Avropa standartlarına uyğundur. Türkiyə ali məktəblərinin diplomları dünyada tanınır. Qardaş ölkə təhsil sahəsində innovativ yenilikləri həyata keçirir. Dünyaya çıxışları daha sürətlidir, genişdir. Bu baxımdan hesab edirəm ki, Azərbaycan Təhsil Nazirliyinin Türkiyə Milli Təhsil Nazirliyi, eləcə də Türkiyə Ali Təhsil Şurası ilə birgə proqramlar həyata keçirməsi bizim təhsil sektoru, xüsusən də ali təhsildə müsbət nəticələrə gətirib çıxaracaq. Qabaqcıl təcrübəni öyrənmək, ondan istifadə etmək həmişə xeyir gətirir. Birgə təhsil proqramları üzərində ciddi iş aparılmalı, bu proqramların icrasına ciddi də nəzarət olmalıdır.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



**Nazir bildirib ki, yenilik üçün tədris resurslarının hazırlanması istiqamətində də intensiv işlər aparılır:** "Proqramın pilot versiyaları Kvemo Kartli və Samtsxe Cavaxeti bölgələrindəki uşaq bağçalarında tətbiq olunub. Bələdiyyələr səviyyəsində sistemin tətbiqi ilə bağlı tələb və imkanlar, həmçinin gələcəkdə alternativ məktəbəqədər təhsilin tətbiqinə hazırlıqla bağlı araşdırmalar aparılır".

# Gürcüstanda azərbaycanlılar gürcü dilini bağçadan öyrənəcəklər

## Bilinqual təhsil proqramının həyata keçirilməsinə yerli ikidilli və köməkçi müəllimlər cəlb olunacaqlar

**"Bu il Gürcüstanda ilk dəfə olaraq məktəbəqədər müəssisələrdə bilinqual (ikidilli - red.) təhsil sisteminin tətbiqinə başlanılıb".**

Report xəbər verir ki, bunu Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli parlamentdə "nazir saatı" formatında çıxışında deyib.

M.Çxenkeli qeyd edib ki, bilinqual təhsil proqramının həyata keçirilməsinə yerli ikidilli və köməkçi müəllimlər cəlb olunacaqlar.

# Ermənistanda 44 günlük müharibə ilə bağlı yeni qalmaqal

## Separatçı rejimin zabitləri və generalları qətllər törədib



**Ermənistanda 44 günlük müharibə ilə bağlı yeni qalmaqal gündəmə gəlib.**

"Qafqazinfo" xəbər verir ki, Roman Baqdasaryan adlı bloger video paylaşaraq Azərbaycanın Qarabağ bölgəsində separatçı rejimin qalıqlarının generalları barədə bir neçə qalmaqallı fikir səsləndirib. Blogerin sözlərinə görə, 44 günlük müharibə zamanı separatçı rejimin zabitləri və generalları qətllər törədib və onların verdikləri əmrlərin icrası nəticəsində yüzlərlə-minlərlə erməni əsgər ölüb. Baqdasaryan bildirib ki, təkcə Maqatis istiqamətində bu cür cinayətkar əmrlər nəticəsində 250 hərbçi öldürülüb. O vurğulayıb ki, onların ölümündə yüksək rütbəli hərbçilər günahkardır.

Rejimin qalıqlarının prokurorluğu blogerin videosunu araşdırmaq üçün Milli Təhlükəsizlik Xidmətinə göndərib.

# Yaddaşımızın yaddaş kitabı



Cahangir Məmmədli

**Etiraf edim ki, uzun müddət hər hansı bir dövlətin müharibə törətməsi, hər hansı bir dövlətə qarşı savaş törətməsi prosesində həmin dövlətdə yaşayan xalqı deyil, o ölkəni idarə edən rəhbərliyi günahkar hesab etmişəm. Hətta İkinci dünya müharibəsinin meydana çıxmasında belə günahı alman xalqında deyil, Hitlerdə axtarmışam.**

XX əsr boyu və XXI əsrin bu günlərində Azərbaycana qarşı dünyanın heç yerində görünməmiş terrorlar və müharibələr törətmiş Ermənistanın həm dövlətini, həm də birbaşa erməni xalqının (əgər ona xalq demək mümkünsə) vəhşi simasını görməkdəyəm. 44 günlük Vətən müharibəsində bu murdar xalqdan və murdar marionet dövlətdən intiqam almasaydıq, yəqin ki, mən bu yaşımda dünyanı ən ağır torpaq dərdi ilə tərk edəcəkdim.

Biz zəfər çaldıq. Murdarın murdar sifətini ifşa etdik. Ermənistan 30 illik işğal altında saxladığı Qarabağ yurdunu xaraba qoydu, viran etdi. Qısaca desəm, çox yaralar vurdu bizə. Payını da aldı. Bizim bu qələbəmiz şəhid qanı ilə, şəhid canı ilə qazanıldı. Azərbaycan media qurumları qələbəmizin bütün sevincləri ilə bərabər, şəhidlərimizin də ruhunu əbədiləşdirən duyğulu esselər, teleoçerklər, telefilmlər təqdim etməkdədirlər. Bu media materiallarını diqqətlə izlədikcə erməni adına, erməni xislətinə olan haqlı nifrətimiz birə beş artmaqdadır. Şəxsən mənim erməni xislətinə nifrətimin sonsuzluğu bu murdar "millətin" Azərbaycana qarşı iki əsrdən bəri törətdiyi soyqırım tarixinə yenidən diqqətimə çox bağlıdır. Bu soyqırımları tarixçi alimlərimiz, tədqiqatçılarımız və publisitlərimiz müntəzəm araşdırmaları ilə zaman-zaman gündəmə gətirirlər. Bu əsərlərin bir çoxu iləünlü yazıçımız M.S.Ordubadinin "Qanlı sənələr"indən tutmuş son günlərin publisitikasındadək çoxları ilə tanışam. Lakin mən bu sırada bir daha yenidən diqqətlə oxuduğum və təkcə Ermənistanı deyil, bu murdar xalqın da murdarlığını ortaya qoyan bir tədqiqatdan bəhs etmək istərdim. Bu, yazıçı-publisist Fərəc Fərəcovun "Yaycı soyqırımı" kitabıdır. Hələ 2002-ci ildə nəşr olunmuş bu kitabı indiki zamanda yenidən xatırlatmağım buradakı iki maraqlı keyfiyyətə bağlıdır: birincisi, "Yaycı soyqırımı" ermənilərin tarixən və müasir dövrdə Azərbaycana qarşı törətdikləri saysız-hesabsız soyqırım və terror hadisələrini toplayaraq, tədqiq edərək, publisistik təhlillər apararaq oxucuya təqdim etməsi, ikincisi, bu düşmənin heç vaxt öz əməllərindən əl çəkməyəcəyini, bizə əbədi düşmən olacağını peşəkar publisist çağırışları ilə bizi arxayınlaşmamağa çağırmasıdır.

Müəllif öz kitabına giriş sözü kimi Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nı oxucuya təqdim edib.

Əvvəlcədən qeyd edim ki, bu tarixi Fərman ermənilərin zaman-zaman və həm də müntəzəm olaraq azərbaycanlılara qarşı törətdikləri soyqırım faktlarının uzun müddət gizlədilməsi, sovet ideologiyasının belə faktlara tamamilə yanlış yanaşmasını göstərir və bu faktların üzə çıxarılması, tariximizin obyektiv təhlilini verməsi, martın 31-ni soyqırım günü kimi elan etməsi ilə bizə birbaşa olaraq düşmənin düşmən olduğunu unutmamaq çağırışı ilə dünənimiz üçün də, bu günümüz üçün də, sabahımız üçün də özünün əbədi aktuallığını saxlamaqdadır.

Kitabın "Məkrli köçürmələr" sərlövhəli hissəsində müəllifin ilk cümləsi: "Yer üzərində yüzlərlə, minlərlə millət, xalq və etnik qruplar yaşayır. Onlardan birinin də adı "erməni" dir. "Erməni" sözü indi onları yaxından tanıyan, onların iç dünyalarına bələd olan insanların qulaqlarında hiyləgərlik, xainlik simvolu kimi səslənib, təkcə indimi? Xeyr! Elə tarix boyu onlar haqq-ədalətdən, düzlükdən, paklıqdan, təmizlikdən çox-çox uzaq olublar... Onların necə əməl sahibi olduqlarını deqiqliyi ilə anlamaq üçün bəlkə də lüğətimizin mənfi məna ifadə edən sözləri kifayət deyil...".

Fərəc müəllimin bu sözlərində böyük həqiqət var. Bu "millət"in ona uyğun adı hələ tapılmayıb. "Yaycı soyqırımı" elə bu hissədə ermənilərin türk xalqlarına, xüsusilə azərbaycanlılara qarşı törətdikləri soyqırımları ümumiləşdirilir və oxucuya bu vəhşilərdən istifadə edənləri də xatırladır. Bu sırada I Pyotrun "Vəsiyyətnamə"sinin bütöv şəkildə təqdim edilməsi bir daha yaddaşımızı təzələyir. Bu kitabın bir oxucu kimi mənə təsiri hər bir tədqiqat məqaləsinin sonunda müəllifin müasirlərimizə çağırışıdır: "Düşünək və bütün ətrafımızı düşündürək..."

Müəllif tədqiqatlarında dəqiq faktlara müraciət edərək ermənilərin bu soyqırımlarda ən alçaq sifətlərini göstərir, onların heç bir uşağa, heç bir qadına, günahsız insanlara mərhəmət göstərmədiklərini qələmə alır və bu faktları Şamaxıda, Bakıda, Qubada, Zəngəzurda, Vedidə, Xocalıda...baş verdiyini ürək ağrısı ilə söyləyir.

Əlbəttə, ermənilərin azərbaycanlılara qarşı törətdikləri bu soyqırımları haqqında oxucuların müxtəlif kitablardan, araşdırmalardan məlumatlar alıblar. Amma Fərəc Fərəcovun haqqında bəhs etdiyimiz bu kitabındakı fikirləri aydın bir dildə və aydın bir üslubda olub və hər kəsə erməni xislətinin nə olduğunu dəqiqləşdirir. Ermənilərin 1992-ci il fevralın 26-da Xocalıda törətdikləri qətliam barədə özünəməxsus təhlillər aparan müəllifin aşağıdakı fikrinə diqqət edək: "Bütün bəşər tarixini, bütün millətləri, xalqları saf-çürük etsək belə, bu cür çirkin əqidəyə, məkrli niyyətlərə mübtəla olmuş ikinci bir millət, xalq təbii ki, görə bilmərik. Görünür, bu zümrənin xamırı ara qarışdırmaqdan, ikiüzlülükdən, hiylədən, qandan yoğrulub". Müəllifin bu cümlələrdəki fikirləri bizi bir daha düşünməyə vadar edir ki, bu murdar "millətin" həmin murdar xisləti heç vaxt dəyişməyəcək və biz bu dəyişməzliyi heç vaxt unutmamalıyıq. Və müəllifin Xocalı qətliamından doğan bir fikrinə də hər kəs şərik olmalıdır: "Bu ağır faciə qəlbimizə, düşüncəmizə hakim kəsilməli, bir an bizi tərk etməməli və rahat buraxmamalıdır". Tədqiqatçılarımızın, publisistlərimizin, o cümlədən Fərəc Fərəcovun bu dəqiq tövsiyələri bizi unutqanlıqdan uzaqlaşdırdı və yəqin ki, 44 günlük Vətən müharibəsində döyüşçülərimizin qisas istəyi həm də belə yazılardan doğdu.

Müəllif, doğru olaraq "Yaycı soyqırımı"nı "ən böyük qətliam" adlandırır və bunu faktlarla sübut edir. Bu bölümdə də ermənilərin qaniçən xisləti təsvir olunur və müəllif yenə də oxucunu bu xisləti unutmamağa səsləyir. Həmin soyqırımın təşkilatçılarından olan Andronik Ozanyanın bioqrafiyasını, onun azərbaycanlılara, türklərə nifrətini göstərən faktlar bizi bu günün, habelə sabahın intiqamına çağırır. Müəllif "Yaycı soyqırımı" ilə əlaqədar kəndin yaşlı adamlarının ağır xatirələrini qələmə alır və bu canlı xatirələr bu gün də erməniləri iç üzünü açır. Bu xatirələrin müəlliflərindən birinin sözüdür: "Hamısını düşmən bilin", çünki digər bir xatirə müəllifinin dediyi kimi onlar "üzdə qardaş, içdə cəlladdılar". Kəndin digər bir yaşlı qadını: "Bizim bir düşmənimiz var-erməni!" - deyir. Kitabda ermənilər haqqında dünyanın iyirmiyə yaxın ən məşhur edib, alim və ictimai xadiminin həqiqəti ifadə edən sətirləri yer alıb. Onu da qeyd edək ki, "Yaycı soyqırımı"nın müəllifi bu sayaq faktların elmi mənbəyini də göstərməyi heç vaxt unutmur. Müəllifin əsas məqsədi müxtəlif mənbələrdən aldığı bu faktları bir yerə toplayıb müasir oxucuya çatdırmaqdır. Xüsusi qeyd etmək istərdim ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri saysız-hesabsız vəhşiliklərin bir yerə toplandığı, bu vəhşiliklərin aydın təhlilləri belə bir qənaətə gəlməyə əsas verir ki, xalqımızın uşaqdan tutmuş qocayadək hər birinə vacib bir öyrənc və yaddaş vəsaiti kimi bu əsər böyük tirajla nəşr edilib orta məktəblərin tarix dərsliyinə əlavə kimi və hər kəsin evindəki kitab rəfinə qoymaq üçün məsləhət görülməlidir. Çünki bu, bir yaddaş kitabıdır.

# "Hökumət biznes qurumlarının "ərköyün" obrazını yaradıb"

## Eyyub Hüseynov: "Yoxlama prosedurları həddindən artıq mürəkkəbdir"



**Bakıda marketlərdə yararsız məhsulların satıldığı məlum olub. İstehlaka yararsız bioloji fəallığa malik qida əlavələrinin satışının qarşısı alınıb. Bu barədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat yayıb.**

Bildirilib ki, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, ticarət mərkəzində yararsız məhsulların topdan satışı həyata keçirilib. Agentlik əməkdaşları fiziki şəxslər Qəmbərov Rauf Qurbanqulu oğlu, Muhammed Saeed Khana, Mehdiyev Vüqar İnqilab oğluna məxsus mağazalarda növbədənkənar yoxlama aparıblar.

Araşdırmalar nəticəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verməyən, sertifikatlaşdırılmamış, BFMQƏ adı altında müxtəlif çeşidli məhsulların satışının reallaşdırıldığı aşkar edilib.

Müxtəlif növ və çəkilərdə qablaşdırılmış 192 ədəd qida təhlükəsizliyi sertifikatı olmayan məhsul satışdan çıxarılıb, müvafiq tədbirlər görülüb .

**Yararsız məhsulların satışı barədə "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirib ki, cəmiyyətdə problemlə üzləşdikdə kökünü qanunlarda axtarmaq lazımdır:** "Cəmiyyəti insanlar yox, qanunlar idarə edir. Azərbaycan hökuməti son 6-7 ildə biznes qurumları üçün bir "ərköyün" obraz yaradıb. Onlara toxunulmazlıq statusu verib. Kim nə istəsə, sata, ala bilər, amma onları yoxlamaq olmaz.

***"Xarici ölkələrdən təhlükəli, hətta insan üçün yararsız, o cümlədən də bioloji fəal olan qida əlavələri gətirirlər"***

Yoxlama prosedurları həddindən artıq mürəkkəbdir. Yoxlayıcı təşkilat reyd üçün öncə Ədliyyə Nazirliyinə müraciət etməlidir. Nazirlik razılaşsa, qarşı tərəfə bununla bağlı gün, tarix haqqında məlumat verir. Kimlər gəlir və nə üçün gəlir deyə bildirilir. Daha sonra razılıq verilsə, aidiyyəti qurum yoxlama aparmalıdır. Əlbəttə ki, bu, effektsiz üsuldur".

**E.Hüseynov vurğulayıb ki, biznes qurumları hökumətin onlar üçün yaratdığı toxunulmazlıq şəraitindən sui-istifadə edir:** "Xarici ölkələrdən təhlükəli, hətta insan üçün yararsız, o cümlədən də bioloji fəal olan qida əlavələri gətirirlər. İllərdir ki, bioloji aktiv maddələr sektoru nəzarətsiz olub. Çünki bunlar nə dərman, nə də qidadır ki, Səhiyyə Nazirliyi, AQTA nəzarət etsin. Bioloji fəallığa malik qida əlavələri boşluqda qalıb.

Ətalət qanununa əsasən bunlar yenə də köhnə qayda ilə davam etdirilir. Belə mallar sanki elektron siqaretə bənzəyir. Elektron siqaret nə tütün məmulatı, nə də elektron mal deyil ki, müvafiq qurumlar onu diqqətdə saxlasın. Həmin maddələr qanunlardakı boşluqdan istifadə olunan və bazarı zəbt edən bir mal qrupunda yaranıb. Nəhayət, 1 ilə yaxındır ki, bu kimi məsələlər AQTA-nin nəzarətinə keçib. Bazarda təəssüf ki, sertifikatlaşmadan kənar, bioloji aktiv qida maddələri mövcuddur. Lakin AQTA-nın fəallığı, nəzarət istəyi vasitəsilə dövlət orqanları bu cürə fəaliyyətin qarşısını ala bilməz. Yəni böyük bazara məhdud resurslara malik bir dövlət qurumunun nəzarəti mümkünsüzdür. Ona görə də bu kimi oxşar məsələlərdə istehlakçıların da böyük rolu var. İstehlakçılar aldıqları malın mütləq sertifikatını tələb etməlidirlər. Belə malların üzərində ölkə kodu, Azərbaycan dilində yazı yoxdursa, ya qaçaq, ya da qeyri-qanuni gətirilib. Bu cür məhsulları mənimsəməkdən kənar olsunlar. İstehlakçıların belə hallarla qarşılaşdıqda 1003 telefon "qaynar xətti" ilə AQTA-ya məlumat vermələrini tövsiyə edirəm".

**Sücayət Mehti**





## "Bakcell" nömrəsi almaq üçün ən yaxın ünvan

**Bakcell şirkəti özünün nomre.bakcell.com səhifəsini yeni dizaynla istifadəyə verib. Yenilənmiş sayt vasitəsilə abunəçilər istədikləri nömrəni rahatlıqla axtara, kateqoriyalar üzrə seçə və sifariş edə bilərlər.**

nomre.bakcell.com saytından istifadə etməklə abunəçilər həm 055 həm də 099 prefiksi ilə müxtəlif kateqoriyalı (sadə, bürünc, gümüş, qızıl, platin) nömrələri əldə etmək imkanına malikdirlər. Seçim zamanı nömrənin kateqoriyasına uyğun olan qiyməti ekranda əks olunacaq. İstədiyi nömrə mövcud olduğu təqdirdə, abunəçi sayt vasitəsilə onu sifariş verməli, sonra isə şəxsiyyət vəsiqəsi ilə "Bakcell"in rəsmi diler mağazalarından birinə yaxınlaşmalıdır.

Daha ətraflı məlumat üçün nomre.bakcell.com səhifəsinə daxil olun.

Bakcell xidmət və şəbəkə keyfiyyətini müntəzəm qaydada təkmilləşdirməklə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.


**Elan**

Yeni Azərbaycan Partiyası tərəfindən Rövşən Oruc oğlu Məmmədovun adına verilmiş 249091 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Orada hər kəs 100 ildən çox ömür sürür

## Qəsəbəyə giriş-çıxış məhduddur. Bu məhdudiyyətlər koronavirusla bağlı deyil, kökləri daha qədimlərdədir



*(Əvvəli səh: 8-də)*

**Sardiniyada hər kəs bu mədəniyyətə riayət edir. Sardiniyada hətta XVII-XVIII əsrlərdə də uzunömürlülük qeydə alınıb.**

Alimlərin ortaq fikrinə görə, Aralıq dənizi mətbəxi və pəhrizi uzun yaşamağın stimuludur. Bu, dünyanın ən yaxşı mətbəxlərindən biri sayılır. Aralıq dənizi regionunun mətbəxi öz təzəliyi, yüngüllüyü və incə ətri ilə seçilir. Seynt-Etyen Universitetinin alimləri miokard infarktından əziyyət çəkən 600 pasientdən ibarət olan qrup üzərində tədqiqat aparıblar. Pasientlər iki qrupa bölünüb. Birinci qrup az kalorili pəhrizi, ikinci isə zeytun yağı, makaron, təzə meyvə və tərəvəzlər, paxlalar, az miqdarda qırmızı ət, daha çox miqdarda ev quşlarının əti, balıq, və yemək zamanı qırmızı şərabın istifadə olunması prinsiplərinə əsaslanan Aralıq dənizi regionunun pəhrizini tutmalı idi.

Tədqiqatın nəticələri heyrətləndirici olub. Cəmi iki il ərzində böyük fərq müşahidə olunub - "Aralıq dənizi pəhrizini tutan qrupda" həyatın müddəti əhəmiyyətli dərəcədə artıb, xərçəng xəstəliyi halları isə 61 faiz azalıb.

Tərəvəzlər, göyərti və zeytun yağı. Bunlara balıq, dəniz məhsulları, pendir, makaron, düyü, sarımsaq, zeytun, oreqano kimi məhsullar əlavə edildikdə Aralıq dənizi regionun mətbəxi haqqında anlayış əldə edilir. Sağlam qida sağlam yaşamın əsasıdır.

**Məlahət Rzayeva**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## "Nar" gələcəyin İT peşəkarlarını yetişdirməyə davam edir



**"Nar", NMR Rabitə və Yeni Texnologiyalar nazirliyi ilə əməkdaşlıq çərçivəsində "Mobil rabitənin əsasları" təlimini ilk dəfə paytaxtdan kənarda həyata keçirib.**

Təlimdə Naxçıvan Dövlət universitetinin informasiya texnologiyaları üzrə müxtəlif ixtisaslarında təhsil alan tələbələr iştirak ediblər.

Rabitə texnologiyaları mövzulu təlimdə iştirakçılar mobil şəbəkənin fəaliyyətini "Nar"ın texniki heyətinin real təcrübəsi əsasında öyrənir, suallarını birbaşa sahə üzrə mütəxəssislərə yönləndirə bilirlər. Telekommunikasiya sahəsi üzrə yerli kadrların hazırlanmasına dəstək məqsədilə davamlı olaraq keçirilən təlimlər "Nar"ın təhsilə dəstək korporativ məsuliyyət strategiyası çərçivəsində təşkil edilir. Təlimə bu günədək ümumilikdə, 200-dən çox tələbə qatılıb.

*Xatırladaq ki, regionlarda sosial layihələrin keçirilməsinə xüsusi önəm verən "Nar", bundan öncə də şəhid ailələrindən olan tələbələrə dəstək olmaq üçün NDU ilə birgə təqaüd proqramına start vermişdi. "Nar"ın digər sosial layihələri və KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.*

### *Elmin Nuri: "Bir sıra suallara cavab tapmaq lazımdır"*

# Valideyn narazılığı artır

## Şagirdlərin dərs yükü ağırdır



**Tanınmış yazar Cavid Zeynallı "Facebook' hesabında aşağı sinif şagirdlərinin dərs yükünün ağırlığı ilə bağlı paylaşım edib. Paylaşımda qeyd olunub: "Oğlum üçüncü sinifdə oxuyur.**

Test tapşırığı verilir ki, nitq hissələri dil haqqında elmin hansı bölməsində öyrənilir? Morfologiya, fonetika, leksika. Sizcə, üçüncü sinif şagirdlərinin bunu keçməsi çox tez deyil? Dəqiq bilirəm ki, uşaq heç nə başa düşmür, sadəcə əzbərləyir. Belə çıxır, bu dərs proqramı ilə bunlar 7-ci sinifdə Noam Xomskini öyrənməyə başlayacaqlar. Biz də qalacağıq gözümüzü döyədöyə..". Paylaşıma bir çox valideyn tərəfindən mövcud durumdan narazılıq ifadə edən şərhlər yazılıb.

Məsələ təhsil sistemimizdə illərdir mübahisəli məsələlərdən olan şagirdlərin dərs yükünün ağırlığı mövzusunu yenidən gündəmə gətirib. Maraqlıdır, bu problem nədən qaynaqlanır və həll etmək üçün nə kimi tədbirlər görmək olar?

**Bu sahədəki bütün narazılıqların tutarlı faktlara söykəndiyini bildirən "AzEdu.az" portalının baş redaktoru Elmin Nuri "Şərq"ə söyləyib ki, bunlar haqlı etirazlardır:** "Bəzən aşağı sinif şagirdlərinin dərs proqramında çox uyğunsuz mövzulara rast gəlinir. Dərsliklərin hazırlanması özü xüsusi bir strategiyadır. Bu, xüsusi psixoloji yanaşmalar tələb edir. Ələlxüsus da ibtidai sinif dərsliklərini tərtib edərkən ən incə detallarına qədər düşünmək lazımdır. Xaricdə, eləcə də təhsil sisteminin inkişaf etdiyi uzaq şərq ölkələrində buna xüsusi önəm verirlər".

*Ekspert artıq dərsliklərdəki mülahizələri, akademik bilgiləri maraqlı metodlarla əvəz etməyin zamanı gəldiyini vurğulayıb:* "Hazırda xaricdə elə müəllimlər var ki, onların dərslərinin əsasını oyunlar təşkil edir. Bu, dərsliklərdə də, tədris proqramında da öz əksini tapır. Bizdə isə təəssüf ki, nə dərsliklər akademik çərçivədən kənara çıxır, nə də müəllimlərimizin tədris forması dəyişir".

E.Nuri ölkəmizdə ibtidai siniflərdə təhsil alan şagirdlərin dərs yükünün ağırlığına diqqət çəkib: "Bəzən görürük ki, üçüncü, dördüncü sinif şagirdinə onun beyninin yeddinci, səkkizinci sinifdə qəbul edə biləcəyi material təqdim edilir. Bu, dəhşətdir. Cəmiyyətimizin təhsilə münasibətini dəqiq öyrənmədən digər ölkələrlə çox yanlış müqayisələr aparırıq. Məsəl üçün, eşidirik ki, Çində, Sinqapurda, Amerikada şagirdlərin dərs yükü çoxdur və bunun öhdəsindən gələn şagirdlər təhsildə daha böyük uğur qazanırlar. Biz də uyğun olmasa belə, onu ölkəmizdə tətbiq etməyə çalışırıq".

**Baş yazar dünya təcrübəsinə söykənən hər hansısa bir tədris üsulunu ölkəmizdə tətbiq etməzdən öncə atılması vacib olan addımları sadalayıb:** "Bunu etməzdən öncə bir sıra suallara cavab tapmaq lazımdır. Misal üçün, biz buna hazırıqmı? Bizim cəmiyyətin qavraya biləcəyi tədris proqramının yükü hansı səviyyədədir? Bununla bağlı müəyyən sınaqlar, monitorinqlər, pilot layihələr həyata keçirilibmi? Məhz bunlardan sonra dərs yükünü artırmaq olar".

E.Nuri sonda təəssüf hissi ilə bizdə bütün bunların həyata keçirilmədiyini söyləyib və bunun cəzasını şagirdlərin, eyni zamanda valideynlərin çəkdiyini diqqətə çatdırıb.

**Günəş Mərd**

# Əmək bazarının tələblərinə uyğun kadr hazırlanır

## Peşə Təhsili üzrə Dövlət Agentliyi və "Azerconnect" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ PEŞƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT AGENTLİYİ

azerconnect

**Peşə Təhsili üzrə Dövlət Agentliyi və "Azerconnect" şirkəti arasında əmək bazarının tələblərinə uyğun kadr hazırlığının dəstəklənməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb. Memorandum kadr ehtiyaclarının öyrənilməsi, razılaşdırılmış ixtisaslar üzrə kadr hazırlığının təşkil edilməsi və tədris proqramlarının hazırlanması istiqamətində birgə əməkdaşlığı nəzərdə tutur.**

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Valeh Mirzalıyev bildirmişdir ki, "İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası strateji hədəflərdən biridir. Peşə təhsil müəssisələri əmək bazarının ehtiyaclarına uyğun kadrların hazırlanması istiqamətində işəgötürənlərlə müxtəlif səviyyələrdə əməkdaşlıq etməkdə hər zaman maraqlıdır. Bu istiqamətdə birgə əməkdaşlıq peşə təhsil müəssisələrinin real iş təcrübəsinə əsaslanan kadr hazırlığına dəstək göstərəcək."

"Azerconnect" şirkətinin Baş direktoru Emil Məsimov qeyd etmişdir ki, "İKT sahəsində çalışan ən böyük işəgötürənlərdən biri olaraq yerli əmək bazarının fərqli imkanlarının öyrənilməsi və şirkətimizə peşəkar işçi qüvvəsinin cəlb edilməsini daim diqqət mərkəzində saxlayırıq. İnanırıq ki, Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə dövlət-özəl əməkdaşlığı formatında qurulan münasibətlərimiz peşə təhsilli vətəndaşlarımızın İKT sektorunda əmək fəaliyyətinə cəlb olunmasına, eləcə də yerli əmək bazarının potensialının daha da güclənməsinə öz töhfəsini verəcəkdir".

Qeyd edək ki, artıq əməkdaşlıq çərçivəsində "Ön ofis/satış təmsilçisi", "İPTV üzrə quraşdırma mütəxəssisi" və "Əlaqə Mərkəzi Operatoru" istiqamətləri üzrə təlimlərin icrasına başlanılıb. Təlimlər ənənəvi və ya hibrid formatda (həm onlayn, həm də ənənəvi) sahə üzrə çalışan mütəxəssislər tərəfindən tədris edilir. Təlimlərin keçirilməsində nəzəri biliklərlə bərabər, praktiki bacarıqların verilməsinə xüsusi önəm verilir.

İl ərzində əmək bazarının dəyişən ehtiyaclarını nəzərə alaraq, bir sıra yeni təlimlərin keçirilməsi nəzərdə tutulur. Eyni zamanda uzunmüddətli perspektivdə peşə təhsil müəssisələri tərəfindən bu tipli təlimlərin davamlı olaraq keçirilməsi planlaşdırılır.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2489



## Əlləri, qolları bağlı mumiya tapıldı

### 1200 il əvvəl ölmüş insanın qalıqları arxeoloqları heyrətə salıb

**Peruda arxeoloqlardan ibarət 40 nəfərlik qrup gözlənilməz tapıntı əldə edib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, bu barədə CNN televiziyası məlumat yayıb. CNN-ə danışan perulu arxeoloq Huaman "bu qədər önəmli bir tapıntı ilə qarşılaşacağımızı heç gözləmirdik", söyləyib. Arxeoloqlar Perunun paytaxtı Lima şəhəri yaxınlığındakı bir ərazidə yaşı 800-lə 1200 il arası təxmin edilən mumiya tapıblar. San-Marsos Milli Universitetinin tədqiqatçıları mumiyanı arxeoloji qazıntı ərazisinə aid olan qədim qəsəbə meydanının ortasında tapıblar. Mumiya kəndirlə bağlı, əlləri ilə üzünü örtmüş haldadır. Mütəxəssislər bir insanın bu şəkildə mumiyalanmasının Peruda əsrlər öncə cənazə mərasimlərində bir ənənə olduğunu bildirir. Mumiya qədim İnka dövrünə aid edilir. Qazıntılara rəhbərlik edən arxeoloq Pieter Van Dalen Luna deyib ki, mumiya böyük ehtimalla Kolumbdan əvvəlki dönəmlərdə ticarət mərkəzi olan Cajamarquliaya dağdan gələn, 25-30 yaşlarında bir adama aiddir. Arxeoloqlar mumiya axtarışında olmayıb, qarşılarına çıxan bu tapıntı onlar üçün böyük sürpriz olub. Əli-qolu kəndirlə bağlı mumiyanın tapılması qədim Peru haqqında çox maraqlı faktların üzə çıxmasına səbəb olacaq.

**Məlahət**

## 9 il həbs cəzası verildi

### COVID fondundan oğurladığı pulla "Lamborghini" almışdı




**ABŞ-ın Texas ştatında saxta sənədlərlə Covid-19 üçün verilən güzəştli krediti alaraq lüks alış-veriş edən şəxs 9 il həbs cəzasına məhkum edilib.**

Oxu.az xəbər verir ki, ölkənin Ədliyyə Nazirliyindən verilən açıqlamada, Texasdan olan 30 yaşlı Li Praysın fırıldaqçılıq və çirkli pulların yuyulmasında günahkar bilindiyi vurğulanıb.

Linin vergi qeydlərini saxtalaşdıraraq Covid-19 fondundan 1,6 milyon dollar kredit götürdüyü və "Lamborghini Urus", "Ford F-350" avtomobilləri və "Rolex" saatı kimi bahalı əşyalar aldığı qeyd edilib.

Ona qarşı irəli sürülən ittihamları etiraf edən Linin məhkəmədə 9 il həbs cəzası aldığı bildirilib.

Nazirlikdən bildirilib ki, Dələduzluqla Mübarizə İdarəsi tərəfindən COVID-19 yardım fondlarında fırıldaqçılıq faktı ilə bağlı 150-dən çox müttəhim barəsində 95-dən çox cinayət işi açılıb.

*Bütövlükdə, indiyədək sözügedən fondlardan qeyri-qanuni yollarla 75 milyon dollardan çox nağd pul götürülüb.*

## Paris və Honkonqu geridə qoyub

### Yaşamaq üçün dünyanın ən bahalı şəhəri açıqlanıb



**Qiymətlər baxımından Təl-Əviv şəhəri Paris və Honkonqu geridə qoyub və 2021-ci ildə yaşamaq üçün dünyanın ən bahalı şəhəri adını qazanıb.**

**"APA-Economics"in məlumatına görə, bu barədə "The Jerusalem Post" qəzeti Böyük Britaniyanın "Economist Group" şirkətinin analitiklərinin tədqiqatına ("Worldwide Cost of Living 2021") istinadən yazır.**

***Qeyd edək ki, şirkətin analitikləri dünyanın 173 şəhərində yaşayış minimumunu tədqiq edib. Qəzet qeyd edir ki, 2020-ci ildə Təl-Əviv Paris, Honkonq, Osaka və Cenevrədən sonra ən bahalı beşinci şəhər olub. Onun birinci yerə yüksəlməsinə İsrail şekelinin ABŞ dollarına qarşı məzənnəsinin uzun müddət artması, həmçinin ərzaq və nəqliyyatın bahalaşması səbəb olub. Məlumata görə, bu il şəhərdə əmtəə və xidmətlərin orta qiymətləri yerli valyutada 3,5% artıb, halbuki ötən il artım cəmi 1,9% təşkil edib. Pandemiyanın başlanğıcından bəri İsrail valyutası dollara nisbətdə təxminən 10% bahalaşıb. Bir ay əvvəl valyuta məzənnəsi ötən əsrin 90-cı illərinin ortalarından bəri ilk dəfə olaraq bir dollar üçün 3,04 şekelə çatıb.***

## Boksçu əri Leylanı döyüb

### "Deyir, Aleyna Tilkini alacağam"



**Aparıcı Leyla Süleymanova 6 illik həyat yoldaşı, milli boksçu Sinan Ulutürk tərəfindən zorakılığa məruz qaldığını iddia edərək, boşanmaq üçün məhkəməyə müraciət edib.**

**Axşam.az türk mediasına istinadən xəbər verir ki, Leyla müraciətində şiddətlə yanaşı xəyanətə də uğradığını bildirib.**

**Sinandan 10 yaş böyük aparıcı "Həyat yoldaşım deyir ki, sən məndən böyüksən, gedib Aleyna Tilki ilə evlənəcəyəm" ifadəsini işlədərək həyat yoldaşının ona təzyiq etdiyini söyləyib.**

**Həyat yoldaşının onu məhkəməyə verməsindən sonra Sinan da onunla bağlı iddia irəli sürüb. O, Leylanın ona xəyanət etdiyini söyləyib və 1 milyon lirə təzminat tələb edib.**









## Orada hər kəs 100 ildən çox ömür sürür

### Qəsəbəyə giriş-çıxış məhduddur. Bu məhdudiyyətlər koronavirusla bağlı deyil, kökləri daha qədimlərdədir

**Məlahət Rzayeva**

**Sardiniya adası dünyada 100 yaşdan artıq yaşayan insanların ən çox olduğu yerdir. Buna görə Sardiniyaya "mavi xətt" ölkəsi də deyilir. David Rovson adlı alim Sardiniyada uzunömürlülüyün sirrini öyrənməyə cəhd edib.**

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, adadakı qidalanma ənənəsi, sosial yaşam və daha bir neçə amil üzərində araşdırma aparan alim maraqlı faktlarla qarşılaşıb. Sardiniya İtaliyanın ən önəmli adalarından biridir. Bura eyni zamanda Aralıq dənizinin ikinci böyük adasıdır. Sardiniya dünyada 100 yaşından artıq yaşayan insanların ən çox olduğu yer kimi tanınır. Uzunömürlülər daha çox adanın dəniz sahilində yerləşən qəsəbələrində yaşayırlar. Bu yaşayış yerlərindən biri Arzana qəsəbəsidir. Qəsəbə kiçikdir. Məlumdur ki, İtaliya koronavirusdan daha artıq dərəcədə təsirlənən ölkələr sırasında az qala birinci sırada idi. Bunun bir səbəbi də ölkə əhalisi arasında yaşlı insanların çox olması göstərilir. Lombardiya bölgəsi də daxil olmaqla, Siciliya və Sardiniyada onlarla insan koronavirusdan həyatını itirdi. Amma pandemiyaya baxmayaraq Sardiniyada uzunömürlülük göstəriciləri düşməyib. Səbəb nədir? Tədqiqatlar göstərir ki, insanların uzunömürlü və sağlam yaşamasının səbəblərindən biri qəsəbənin ətraf aləmdən, dünyadan təcrid olunmasıdır. Qəsəbəyə giriş-çıxış məhduddur. Bu məhdudiyyətlər koronavirusla bağlı deyil, kökləri daha qədimlərdədir. Təcridolunma bölgə xalqının genetik kodunda vardır. Sardiniya xalqı digər bölgələrin əhalisindən fərqlənir. Ancaq səbəb təkcə təcrid deyil. Bölgənin adət və ənənələri, mədəni faktorlar da böyük əhəmiyyət daşıyır. Xüsusən də qidalanma qaydaları uzunömürlülüyü təmin edir. Bu da Aralıq dənizi mətbəx mədəniyyətidir.

*Davamı səh: 7-də*







## Onu həyata bağlayan bir sürpriz oldu

### Dükan sahibi də başını daz etdirdi




**Meqan Raqucci 7 yaşında olarkən "alopecia universalis" deyilən xəstəliyə tutulub. Bu xəstəliyə xalq arasında "saçqıran" da deyilir. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, qızcığaz 2017-ci ilin dekabrında 7 yaşını qeyd etdikdən az sonra saçları tökülməyə başlayıb.**

Qısa zamanda saçları ilə yanaşı kirpikləri, qaşları da tökülüb. Bu hal adətən güclü kimya terapiya kursu alan xərçəng xəstələrində müşahidə edilir. Lakin Meqan xərçəng xəstəsi olmayıb. Qızı küçədə görənlər, ona yanımcıl nəzərlərlə baxır, bəzən də "sən xəstəsənmi" deyə soruşurlar. Bu isə qızcığazı üzürmüş. Bununla belə Meqan başına gələn müsibətə qarşı böyük dözüm nümayiş etdirib. Meqanın anası Jenn Raqucci deyir ki, qızı başına gələni qəhrəman bir əsgər kimi qəbul edir və idarə etməyə çalışır. Meqan anasıyla birlikdə evlərinin yaxınlığındakı dükana tez-tez gedir və oradan simit alırlar. Meqan simiti çox sevir. Dükan sahibləri olan ər-arvad hər dəfə Meqanın halını görəndə "biz onun üçün nə edə bilərik?" düşünürmüşlər. Onların ağlına möhtəşəm fikir gəlib. Dükan sahibi Sam Aqqarval "düşünürdük, nə edək ki, qızın üzü gülsün, xoşbəxt olsun. Ağlıma bir fikir gəldi. Və bunu Meqanın atasına söylədim. Meqanın atası polisdir. Ona dedim ki, mən də saçlarımı dibindən qırxdıracağam. Bir dənə tük də qoymayacam. Bundan daha gözəl bir fikir ola bilməz, məncə". Meqanın atası, polis məmuru Mike Raqucci tələsik evə gəlib qızına Sam dayının fikrin söylədikdə Meqan "doğrudan? Sam dayı saçlarını mənimki kimi qırxdıracaq? Onlar bunu mənə görə edir?!" deyə heyrətlə soruşub və çox sevinib. Ertəsi gün Sam Aqqarval bərbərxanada saçlarını lap dibindən - daz etdirib.

"Bununla ona yalnız olmadığını bildirmək istədim, istədim ki, o gülsün, xoşbəxt olsun. Dükana gələnlər Meqan kimi daha birinin olduğunu görsünlər. Meqan da özünü tənha hiss etməsin". Sam və həyat yoldaşı bu durumdan çox məmnundurlar və saçların qırxılmasına da heyfislənmirlər. Meqan isə belə gözəl insanların varlığı sayəsində həqiqətən də özünü xoşbəxt sayır və gülümsəyir: "Sam dayı çox gözəl insandır. Mənə şokoladlı qurabiyələr, simit verir. Artıq özümü yalnız hiss etmirəm". Meqanın anası da bu hadisədən sonra qızının özünə inamının artdığını deyib: "Biz Aqqarval ailəsinə minnətdarıq".

**Məlahət Rzayeva**

## Uğur Şahin həyəcanı azaltdı

### Professor bəşəriyyəti rahatladan açıqlama verib



**COVİD-19-a qarşı peyvənd istehsal edən "Moderna" şirkətinin direktoru Stefan Bancel İngiltərənin "Financial Times" jurnalına açıqlamasında hazırda istifadədə olan peyvəndlərin koronavirusun yeni variant "Omicron"a qarşı təsirsiz olduğunu bildirib:**

"Bu peyvəndlərdən "Delta" ştamında gördüyümüz təsiri gözləməyə dəyməz. Yox belə bir dünya!". "Şərq" "Milliyet.com"a istinadən qeyd edir ki, BioNTech şirkətinin qurucularından türk professor Uğur Şahin "Moderna" sahibinin açıqlamasının yaratdığı həyəcanı azaldıb. U.Şahin bəşəriyyəti rahatladan açıqlama verib. Professor Almaniyanın Maynz şəhərində keçirilən 25-ci Aydın Doğan Vəqfi Ödül Törənindən əvvəl sualları cavablandırıb: "Omicron" variantı ilə bağlı qorxmağa, həyəcanlanmağa, panikaya düşməyə dəyməz. Variantın çox fərqli mutasiyaları olduğunu bilirik. Peyvəndlər bu varianta daha az təsir edəcək, amma xəstəliyin ağır gedişatından qoruyacaq. Peyvəndlər xəstəliyin ağırlaşmasına qarşı immunitet əmələ gətirir. Üçüncü doza peyvənd vurduqdan sonra orqanizm yüksək qoruma gücünə malik olacaq".

Xatırladaq ki, S.Bancel hazırda istifadədə olan COVİD vaksinlərinin "Omicron" variantına qarşı nə dərəcədə təsirli ola biləcəyini təxmin etməyin çətinliyindən danışmışdı. "Moderna" sahibi bildirmişdi ki, yeni variantla bağlı müayinə cavablarının gəlməsini gözləyirlər. Lakin elm adamları vəziyyətin heç də yaxşı olmadığı fikrindədir. S.Bancel hesab edir ki, virus mutasiyaya uğradıqca vaksinlərin tərkibinə də dəyişiklik edilməlidir. Lakin bu proses aylarca sürə bilər. Qeyd edək ki, "Moderna" sahibinin məhz bu açıqlamasından sonra Avropa birjalarında eniş qeydə alınıb. ÜST də koronavirusun yeni variantı barədə "qlobal təhlükə çox böyükdür" açıqlamasını vermişdi.

**Məlahət Rzayeva**

## Məşhur aktrisa ana oldu



**Türkiyəli aktrisa Özgə Özpirinççi ana olub.**

Axşam.az xəbər verir ki, aktrisanın qızı dünyaya gəlib. Özgə hələlik övladlarının adını açıqlamayıb.

*Qeyd edək ki, aktrisa həmkarı Burak Yamantürklə ailəlidir.*